**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

*əlyazması hüququnda*

**FƏRİD ELDAR OĞLU QULİYEV**

# AZAD SAHİBKARLIQ HÜQUQU: BEYNƏLXALQ HÜQUQ NORMALARI VƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİ

**İXTİSAS: 5603.01 – «Beynəlxalq hüquq; insan hüquqları»;**
**5608.01- «Mülki hüquq; sahibkarlıq hüququ; ailə hüququ; beynəlxalq xüsusi hüquq»**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V TO R E F E R A T I**

**BAKI - 2014**

Dissertasiya işi Bakı Dövlət Universiteti Hüquq fakültəsinin «Beynəlxalq xüsusi hüquq və Avropa hüququ» kafedrasında yerinə yetirilmiş, müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq üzrə elmlər doktoru, professor Ə.İ.ƏLİYEV.** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru M.A.MÖVSÜMOV.**<br>**hüquq üzrə fəlsəfə doktoru İ.Z.EYZAVOV.** |
| **Aparıcı təşkilat:** | **AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu.** |

Dissertasiya işinin müdafiəsi «25___» «__02______» 2014-cü il tarixdə saat «_____» Bakı Dövlət Universitetinin nəzdində təşkil edilmiş FD.02.013 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» «_________» 2014-cü il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru** **Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** Hazırda Respublikamızın sürətli iqtisadi inkişafı, ticarət əlaqələrinin intensiv xarakter alması, ölkədə sabit siyasi və iqtisadi mühitin qorunması və bunun nəticəsi kimi xarici kapital axını, yeni müəssisə və təşkilatların fəaliyyətə başlaması prosesləri gedir. Respublikamızın başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən inkişaf mərhələsinə nail olmaqdır.

Qeyd edilənlər isə insan hüquqlarının daha real təmini şəraitində mümkündür. Ədəbiyyatda haqlı olaraq qeyd edilir ki, əgər söhbət insan hüquqlarının müdafiəsindən, bu sahədə beynəlxalq əməkdaşlıqdan gedirsə, onda beynəlxalq və milli (dövlətdaxili) hüququn, insan hüquqları üzrə beynəlxalq standartların və dövlətlərin daxili səlahiyyətlərinin qarşılıqlı əlaqəsi problemləri ortaya çıxır. Bu problemlərin xarakteri həmişə dinamikdir. Bütövlükdə, dünyada gedən dəyişikliklər, beynəlxalq hüququn və insan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın inkişafı bu problemin həllinə daim geniş sistemli yeniliklər gətirir[1]. Bir vacib məqamı da qeyd edək ki, insan hüquqları fərdlərin beynəlxalq səviyyədə təmin olunmuş yuridik hüquqlarıdır. Həmin hüquqlar fərdin fundamental xarakterinin qorunmasına, müharibə və dinc dövrdə onun layiqli həyat səviyyəsinin təmin edilməsinə yönəlmişdir[2].

İnsan hüquqları sistemində azad sahibkarlıq hüququ xüsusi yer tutur. İnsan hüquqlarının müdafiəsi üzrə fundamental beynəlxalq-hüquqi sənədlərdə azad sahibkarlıq hüququ ikinci nəsil adlandırılan iqtisadi, sosial və mədəni hüquqlar kateqoriyasına daxildir. Azad sahibkarlıq hüququnun beynəlxalq-hüquqi əsaslarını isə insan hüquqlarının müdafiəsi sahəsində fundamental sənədlər olan 1948-ci il tarixli İnsan hüquqları haqqında Ümumi Bəyannamə, 1950-ci il tarixli İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası, 1966-cı il tarixli Beynəlxalq Paktlar və s. beynəlxalq sənədlər təşkil edir[3]. Qeyd etdiyimiz beynəlxalq sənədlər bütün dünya dövlətlərinin konstitusiyaları, qanunları, hüquqi aktları üzərində güclü təsirə malikdir[4].

Müasir hüquq ədəbiyyatlarında azad sahibkarlıq hüququnun insan hüquqlarının tərkib hissəsi olması və beynəlxalq xarakteri ilə bağlı müxtəlif fikirlər təsbit olunmuşdur[5]. Bütövlükdə, insan hüquqlarının ən mühüm nailiyyətlərindən biri İkinci Dünya Müharibəsindən sonra beynəlxalq insan hüquqları hüququ və institutlarının formalaşması olmuşdur. Transmilli korporasiyalar və beynəlxalq təşkilatların sayının

[1] Ялийев Я.И. Инсан щцгуглары. Дярслик. Бакы, 2013, с. 4.
[2] The Law of International Human Rights Protection. Walter K., Kunzli J. Oxford, Oxford University Press, 2009, p. 32.; Jack Donnelly. International Human Rights. Westview Press. University of Denver, 2007, p.21-23.
[3] Business Law: legal, e-commerce, ethical, and international environments. Henry R. Cheeseman. 2004.
[4] Murphy D. Sean. Principles of International Law. Concise Hornbook Series. Thomson West. 2006, p. 300.
[5] William F.Felice. The Global New Deal. Economic and Social Human Rights in World Politics. New York, 2010, p. 157-158.



artması[6], əsasən iqtisadi sferada dövlətlərarası münasibətlərin genişlənməsi artıq dövlətlərin təkbaşına insan hüquqları ilə bağlı problemləri həll edə bilməməsi kimi mühüm ideyanı daha da möhkəmləndirmişdir.

Beynəlxalq insan hüquqlarının konseptual əsasları təbii hüquq nəzəriyyəsinə əsaslanır. Bu nəzəriyyəyə görə siyasi ideya kimi yaranmış fərdi hüquqlar təbii hüquqlara çevrilmişdir[7]. İnsan hüquqları kompleksinə daxil olan azad sahibkarlıq hüququnun müdafiəsi həm beynəlxalq, həm də milli səviyyədə həyata keçirilir. Azad sahibkarlıq hüququnun beynəlxalq xarakteri və beynəlxalq-hüquqi müdafiəsi bu hüquq sahəsinin inkişafı ilə bağlıdır. Beynəlxalq hüquq əsasında əcnəbilərə verilən müdafiə sahibkarlıq, ticarət və transmilli korporasiyaların xarici əməliyyatlarının genişlənməsi ilə artmışdır[8]. Ümumiyyətlə, iqtisadiyyatın inkişafı azad sahibkarlığı beynəlmiləlləşdirir.

İnsan hüquqlarının ayrılmaz tərkib hissəsi olan azad sahibkarlıq hüququ isə əsasında iqtisadi fəaliyyət azadlığı dayanan bazar iqtisadiyyatının fundamentini təşkil edən elementlərdən biridir. Bununla əlaqədar olaraq azad sahibkarlıq hüququnun müdafiəsi və inkişafı bazar iqtisadiyyatı strategiyası seçmiş dövlət üçün və ümumilikdə iqtisadi sistemin uğurlu fəaliyyəti üçün vacib şərtdir. Azad sahibkarlıq hüququnun realizəsi və müdafiəsi bazar münasibətlərinin inkişafının istiqamət və tempini obyektiv şəkildə aşkarlamaqla bu hüququn real həyatda mövcudluğunu müəyyən edir. Azərbaycan Respublikası (AR) Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında qeyd edilir ki, Konsepsiya çərçivəsində qarşıya qoyulan sosial-iqtisadi hədəflər yüksək səmərə ilə fəaliyyət göstərən, dünya miqyasında rəqabətə qadir olan iqtisadi sistemin formalaşmasını şərtləndirir. Tarixi və müasir təcrübə göstərir ki, belə bir sistem yalnız sahibkar təşəbbüsünə və sərbəst rəqabətə əsaslanan bazar münasibətləri şəraitində yer ala bilər. Bununla bərabər, iqtisadi və sosial sahələrdə davamlı yüksək artım sürətinin təmin olunması bazar iqtisadiyyatı şəraitində dövlət tənzimləməsinin adekvat şəkildə qurulmasını, qlobal dünya iqtisadiyyatındakı son meylləri və istiqamətləri nəzərə almaqla, bu tənzimləmənin daha da təkmilləşdirilməsini tələb edir[9].

Bütövlükdə, azad sahibkar təşəbbüsü və sərbəst rəqabətə əsaslanan bazar münasibətlərinin inkişafı həm daxili iqtisadi inkişafa, eyni zamanda xarici iqtisadi əlaqələrin inkişafına zəmin yaradır. Bütün bu münasibətlər azad sahibkarlıq hüququnda cəmlənmişdir, ona görə də bu hüququn beynəlxalq və milli hüquqi əsaslarının ətraflı şəkildə tədqiqi aktualdır. Azad sahibkarlıq hüququ insan hüquqlarının ayrılmaz tərkib hissəsidir, həmçinin insanın maddi və mənəvi mövcudluğunu təmin edir. İnsan hüquqları insan təbiətinə əsaslanır, insan hüquqları yalnız insan həyatını deyil, layiqli

[6] Gibney M. International Human Rights Law. Rowman & Littlefield Publishers, 2008, p. 1.
[7] İnternational Human Rights and Humanitarian Law. Treaties, Cases and Analysis. Martin F.F., Schnably S.J., Wilson R.J., Simon S J., Tushnet V.M. New-York, Cambridge University Press, p. 2.
[8] İnternational Human Rights in Context. Text and materials. Steiner J.H, Alston P., Goodman R. Oxford, Oxford University Press, p. 87.
[9] Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyası.

insan həyatını təmin etməlidir[10]. Beləliklə, azad sahibkarlıq hüququ insan hüquqlarının əsas məqsədi və təyinatı bazasında formalaşmışdır.

İnsan hüquq və azadlıqlarının tanınması və müdafiəsi vətəndaş cəmiyyətinin, hüquqi dövlətin ən əsas məqsədlərindən biridir. Respublikamızda demokratik dəyərlərə əsaslanan yeni ictimai münasibətlər sisteminin formalaşması cəmiyyətin strukturunda mühüm dəyişikliyə səbəb olmuş, vətəndaşların ictimai-siyasi proseslərdə daha fəal rol oynamasına şərait yaratmışdır. Hazırda ölkədə vətəndaş cəmiyyəti coşqun inkişaf dövrünü yaşayır. Cəmiyyətin sabit inkişafı şəxsiyyətin azadlığı və sərbəstliyinin təmin olunması şəraitində daha dayanıqlıdır. Bu meyar insan hüquqlarının bazasını təşkil edir. Belə ki, AR Konstitusiyasının 12-ci maddənin 1-ci hissəsinə görə, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, AR vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Həmin maddənin 2-ci hissəsinə görə isə, bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Azad sahibkarlıq hüququnun təmin edilməsi son nəticədə iqtisadi və sosial hüquqların, o cümlədən mülkiyyət, bərabərlik, əmək, birləşmək, azadlıq və s. hüququnun təmin edilməsinə gətirib çıxarır. Digər insan hüquqları ilə sıx əlaqədə olan azad sahibkarlıq hüququnun müdafiəsi əlaqəli olduğu hüquq sahələrinin də müdafiəsi və inkişafına şərait yaradır. Bu baxımdan azad sahibkarlıq hüququnun kompleks xarakterinin araşdırılması xüsusi aktuallıq kəsb edir. Normativ-hüquqi aktlarda təsbit olunmuş hüquq və azadlıqlar öz sosial təyinatına o halda çatır ki, onlar fərdlərin və kollektivlərin fəaliyyətində həyata keçirilir və hüquqi mexanizmlərin köməyilə həyati məqsədlərin əldə edilməsinə şərait yaradır. Azad sahibkarlıq hüququnun normativ-hüquqi mahiyyətinin faktiki hüquqauyğun hərəkətə çevrilməsi – bu hüququn realizəsi anlayışı ilə əhatə olunur.

Azad sahibkarlıq hüququna münasibətdə onun realizəsinin vacib təminatlarından biri inhisarçılıq və haqsız rəqabətlə mübarizə ilə bağlı müddəaların tətbiqidir. AR Konstitusiyasına (maddə 15.2) əsasən Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Mülkiyyət və təşkilati-hüquqi formalarından asılı olmayaraq öz fəaliyyətini AR qanunvericiliyinə uyğun surətdə həyata keçirən sahibkarın hüquqlarının və qanuni mənafelərinin müdafiəsini dövlət təmin edir. «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında» 25 may 1991-ci il tarixli AR Konstitusiya Qanununun 7-ci maddəsinə müvafiq olaraq, sahibkarlar üçün bərabər iqtisadi şərait yaradılır və bərabər hüquqi təminatlar müəyyən edilir. Hüquqları müdafiə olunmayan sahibkar gec-tez bu hüquqdan imtina etməyə məcbur olur, bu isə sonda azad sahibkarlıq hüququnun təmin edilməməsinə, həmin hüquqdan istifadənin gərəksizliyinə gətirib çıxarır. Buna görə də, sahibkarların hüquqlarının və qanuni maraqlarının müdafiəsi, həmin hüquq və maraqların hüquqi

[10] Donnelly J. Universal Human Rights in Theory and Practice. Third Edition. New York. 2013, Cornell University Press. Ithaca and London. p. 14.



müdafiə mexanizmlərinin müasirləşdirilməsi, təkmilləşdirilməsi, bu istiqamətdə çatışmazlıqların aradan qaldırılması vacib şərtdir.

Müasir dövrdə hər bir dövlətin milli iqtisadiyyatı qaçılmaz şəkildə beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiya edir, milli sərhədləri aşır və mütləq şəkildə beynəlxalq faktorun təsirinə məruz qalır. İqtisadi münasibətlərin beynəlmiləlləşməsi bütün fəaliyyət sferalarında inteqrasiya proseslərinin formalaşması və inkişafını obyektiv şəkildə şərtləndirir. Azad sahibkarlıq fəaliyyəti sahəsində mövcud beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliyə uyğunlaşdırılması AR-in müasir sahibkarlıq sektorunun inkişafında, sahibkarlıq fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsində və ümumilikdə iqtisadiyyatın inkişafında irəliyə doğru atılmış mühüm addımdır. Ölkədə sağlam sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılması dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Sahibkarlığın inkişafı yeni iş yerləri yaradır, istehlak bazarına yeni məhsul növü çıxarır, vergi ödəyicilərinin sayını artırır, iqtisadi islahatların sosial bazası kimi əhalinin orta təbəqəsini formalaşdırır. Digər tərəfdən sahibkarlığın inkişafı xarici investisiya axınını gücləndirir və ölkənin dünya iqtisadiyyatına inteqrasiya olunmasını sürətləndirir. Azərbaycan dövləti sahibkarlığın sürətlə inkişaf etdirilməsini ölkədə iqtisadi və sosial problemlərin həllinin, cəmiyyətdə sabitliyin möhkəmləndirilməsinin mühüm amili hesab edir.

AR təbii sərvətlərlə zəngin olan və neft sektoru inkişaf etmiş bir dövlətdir. Respublikamızda hasilat sənayesi üzrə neft və təbii qaz dominantlıq edir, bu isə ölkənin ümumi daxili məhsulunun 50%-dən çox hissəsini təşkil edir. Neft və təbii qazla yanaşı, Respublikamızda qeyri-neft sektorunun inkişafı da öz bəhrəsini verir[11]. Həm neft, həm də qeyri-neft sektorunun inkişafına təkan verən əsas amillərdən biri ölkədə əlverişli biznes mühitinin yaradılmasıdır. "Əlverişli biznes mühiti" anlayışının əsasını təşkil edən əsas komponentlərdən biri məhz azad sahibkarlıq hüququdur.

Beləliklə, AR-də həyata keçirilən iqtisadi siyasətdə əlverişli biznes və investisiya mühiti yaratmaqla daxili və xarici investisiyaların cəlb edilməsi və qeyri-neft sektorunun güclü inkişafına nail olunması mühüm aktuallıq kəsb edir. Qeyri-neft sektorunun hərtərəfli, sürətli və səmərəli inkişafının təmin edilməsinin ən zəruri şərtlərindən biri sahibkarlığın inkişaf etdirilməsi, ilk növbədə, kiçik və orta biznesin fəaliyyətinin effektivliyinin artırılmasıdır. Respublikamızda azad sahibkarlıq hüququnun və bu hüququn xidmət etdiyi sahibkarlığın inkişafının əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur və bu gün AR Prezidenti cənab İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir. AR Prezidenti cənab İlham Əliyev tərəfindən 2004-cü il fevralın 11-də Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı təsdiq edilmişdir. Bu sənəd Respublikamızın regionlarının həm iqtisadi, həm də digər sahələrdə inkişafına gətirib çıxarmışdır. Azad sahibkarlığın həyata keçirilməsi sahəsində mövcud çatışmazlıqların aradan qaldırılması məqsədilə cənab İlham Əliyev tərəfindən Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında 2007-ci il 30 aprel tarixdə yeni bir

[11] The Mining Law Review. Second edition. Editor Erick Richer La Fleche. Law Business Research LTD. p. 12.

Fərman imzalanmışdır. Bu Fərmanın icrası ilə əlaqədar hökumətdə vahid kodlaşdırmanın tətbiqi ilə sahibkarlıq subyektlərinin fəaliyyətinin “bir pəncərə” prinsipinə uyğun təşkilinə dair geniş təhlillər və müzakirələr aparılmış, müvafiq təkliflər hazırlanmışdır. Azad sahibkarlıq qanunvericiliyinin və regionların inkişafı istiqamətində növbəti addım “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında” AR Prezidentinin 19 aprel 2009-cu il tarixli Fərmanı olmuşdur. Sahibkarlıq fəaliyyətinin inkişafı sahəsində qeyd edilən normativ-hüquqi aktlarla yanaşı, “Sahibkarlıq sahəsində yoxlamaların nizama salınması və istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsinə dair bəzi tədbirlər haqqında” AR Prezidentinin 13 aprel 2010-cu il tarixli Fərmanı da Azərbaycan dövlətinin sahibkarlığın inkişafına göstərdiyi qayğının və humanist münasibətin növbəti təzahürü olmuşdur.

**Dissertasiya işinin obyekti** qismində müasir iqtisadi inkişaf şəraitində, xüsusilə də insan hüquqlarının müdafiəsi prizmasından, o cümlədən beynəlxalq və milli hüquqi səviyyələrdə azad sahibkarlıq hüququnun müdafiəsinin təmini məsələləri çıxış edir.

**Dissertasiya işinin predmetini** isə azad sahibkarlıq hüququnun nəzəri cəhətdən əsaslandırılması, azad sahibkarlıq hüququnun digər insan hüquq və azadlıqları ilə qarşılıqlı əlaqəsi və kompleks xüsusiyyətlərə malik olması səviyyəsinin öyrənilməsi, azad sahibkarlıq hüququnun universal, regional, ikitərəfli və dövlətdaxili normativ-hüquqi aktlarda öz təsbitini tapması, həmçinin AR qanunvericilik sisteminin təkmilləşdirilməsi baxımından xüsusilə əhəmiyyət kəsb edən beynəlxalq-hüquqi normaların dövlətdaxili qanunvericiliyə təsir imkanlarının müəyyən edilməsi üzrə problemin təhlili təşkil edir.

**Dissertasiya işinin məqsədi** azad sahibkarlıq hüququnun beynəlxalq və milli hüquqi problemlərinin, bununla bağlı mühüm aspektlərin geniş və kompleks şəkildə araşdırılmasıdır. Azad sahibkarlıq hüququnun beynəlxalq və milli hüquqi problemləri ilə bağlı məsələlərin elmi şəkildə araşdırılması, paralel olaraq, bu sahədə universal, regional və ikitərəfli beynəlxalq-hüquqi müqavilələrin müqayisəli şəkildə nəzərdən keçirilməsinə, xarici dövlətlərin milli qanunvericiliklərinin və elmi ədəbiyyatlardakı mövcud fikir müxtəlifliklərinin ətraflı təhlil edilməsinə, insan hüquqlarının bir sahəsi olan azad sahibkarlıq hüququnun beynəlxalq və milli hüquqi problemləri ilə bağlı mühüm elmi bazanın yaradılmasına, müvafiq sferada müasir və təkmil qanunvericilik sisteminin, son nəticədə isə insan hüquq və azadlıqlarının müdafiəsi kontekstində azad sahibkarlıq hüququnun təmin edilməsi və qorunması səmərəliliyinin artırılması üzrə mühüm təkliflərin və nəticələrin irəli sürülməsinə gətirib çıxarır. Qeyd edilənlər AR dövlətdaxili qanunvericiliyinin beynəlxalq hüquq normalarına uyğun yekdil bir formada təkmilləşdirilməsi üçün olduqca əhəmiyyətli hesab edilə bilər.

**Qeyd edilən məqsədə nail olmaq üçün dissertasiya işində aşağıdakı vəzifələr** müəyyən edilmişdir:

- azad sahibkarlıq hüququnun predmeti olan azad sahibkarlıq fəaliyyətinin tədqiq edilməsi;



- azad sahibkarlıq fəaliyyətinin əsas və icbari əlamətlərinin insan hüquqlarının tərkib hissəsi olan azad sahibkarlıq hüququnun realizəsinə hansı səviyyədə təsir göstərməsi imkanlarının müəyyən edilməsi;
- azad sahibkarlıq hüququnun anlayışı və bu məsələ ilə bağlı elmi ədəbiyyatlardakı fikir müxtəlifliklərinin tədqiqi;
- insan hüquqları üzrə universal və regional xarakterli beynəlxalq-hüquqi aktlarda azad sahibkarlıq hüququnun tənzimlənməsi;
- azad sahibkarlıq hüququnun kompleks xarakterinin aşkarlanması – konkret desək, digər insan hüquqları ilə həm müqayisəli, həm də qarşılıqlı əlaqədə təhlil edilməsi;
- azad sahibkarlıq hüququnun normativ-hüquqi əsasları və azad sahibkarlıq hüququnun xarici dövlətlərin qanunvericiliklərində təsbit olunması probleminin araşdırılması;
- inkişaf etmiş dövlətlərin qanunvericilik təcrübəsindən yararlanmaq, həmçinin müsbət və mənfi elementlərin üzə çıxarılması məqsədilə həmin dövlətlərin milli qanunvericiliklərində azad sahibkarlıq hüququna göstərilən münasibətə diqqət yetirmək;
- azad sahibkarlıq hüququnun realizəsi probleminin geniş şəkildə tədqiqi, xüsusilə də bu hüquq sahəsinin realizəsi mexanizmləri, realizənin formalarının müəyyənləşdirilməsi;
- sahibkarlıq hüququ subyektlərinin hüquqlarının və qanuni maraqlarının müdafiəsi, müdafiə mexanizmlərinin mənfi və müsbət xüsusiyyətlərinin üzə çıxarılması;
- azad sahibkarlıq hüququnun müxtəlif sferalarını tənzimləyən beynəlxalq müqavilələr, həmin müqavilələrin spesifik əlamətlərinin müəyyənləşdirilməsi;
- regional beynəlxalq-hüquqi aktlarda azad sahibkarlıq hüququnun tənzimlənməsi;
- azad sahibkarlıq hüququnun insan hüquqları aspektindən beynəlxalq-hüquqi tənzimlənməsi sferasında əsas prinsiplərin təhlil edilməsi;
- azad sahibkarlıq hüququnun inkişafı sahəsində AR-in beynəlxalq-hüquqi (universal, regional və iktərəfli) əməkdaşlığının inkişaf perspektivlərinin müəyyən edilməsi;
- AR-in qoşulduğu azad sahibkarlıq hüququ ilə bağlı məsələləri tənzimləyən beynəlxalq-hüquqi aktların milli qanunvericiliyimizin inkişafına təsir hədlərinin müəyyən edilməsi;
- azad sahibkarlıq hüququ sferasında AR-in milli qanunvericiliyinin formalaşması, əsas inkişaf istiqamətlərinin müəyyən edilməsi və aparıcı dünya dövlətlərinin qanunvericiliyi ilə müqayisəli təhlillərin aparılması.

**Dissertasiya işinin elmi yeniliyi** onunla əlaqələndirilməlidir ki, hal-hazırkı dövrə qədər insan hüquqları kontekstində azad sahibkarlıq hüququnun beynəlxalq hüquqi əsasları və milli qanunvericiliyin inkişaf tendensiyası istiqamətində kompleks hüquqi tədqiqatlar demək olar ki, aparılmamışdır. Doğrudur, bir sıra xarici hüquq ədəbiyyatlarında və ayrı-ayrı dövlətlərin praktikasında sahibkarlıq hüququ, sahibkarlıq azadlığı probleminin təhlilinə həsr edilmiş elmi araşdırmalar mövcud olsa da, bu tədqiqatlar əsasən həmin dövlətlərin qanunvericiliklərinin təhlili istiqamətində

qurulmuşdur. Eyni zamanda, AR-də azad sahibkarlıq hüququ və bu sahə ilə bağlı problemlər əsasən iqtisadi elmlər sahəsində təhlil edilmişdir.

Qeyd edilənləri nəzərə alaraq, hazırkı dissertasiya işi problemə geniş və müqayisəli nöqteyi-nəzərdən yanaşır, dissertasiya işində Respublikamızın milli qanunvericiliyinin beynəlxalq hüquq normaları ilə müqayisəli şəkildə təhlili aparılır, dünya dövlətlərinin milli praktikası öyrənilir, dövlətimizin azad sahibkarlıq hüququ ilə bağlı milli qanunvericiliyinin təkmilləşdirilməsi və azad sahibkarlıq problemlərinin həlli ilə əlaqədar kifayət qədər mühüm təkliflər irəli sürülür.

Dissertasiya işində aşağıdakı **yeni elmi müddəalar irəli sürülür**:

1. Azad sahibkarlıq hüququ digər insan hüquqlarının müdafiəsinə, eyni zamanda cəmiyyətin və dövlətin iqtisadi inkişafına bilavasitə şərait yaradır. Bu xüsusiyyət azad sahibkarlıq hüququnun sistemli və kompleks xarakterə malik olmasının göstəricisidir. Azad sahibkarlıq hüququ özündə mülki hüquq, əmək hüququ, ticarət hüququ, vergi hüququ, investisiya hüququ və digər hüquqi tənzimləmə sahələrinə aid olan normaları əks etdirir.

2. Azad sahibkarlıq hüququnun predmeti olan azad sahibkarlıq fəaliyyəti uzun tarixi dövr ərzində formalaşmış və dövlətlərin iqtisadi inkişafında, ticarət əlaqələrinin liberallaşdırılmasında əhəmiyyətli mexanizmə çevrilmişdir. Azad sahibkarlıq fəaliyyəti dedikdə, sərbəst bazar münasibətləri şəraitində əsas məqsədi gəlir əldə etmək olan, qanunla müəyyən edilmiş qaydada həyata keçirilən hüquqi və fiziki şəxslərin iqtisadi fəaliyyəti başa düşülməlidir. "Sahibkarlıq azadlığı" kateqoriyası azad sahibkarlıq hüququnun özəyini təşkil edir.

3. Hazırda dünyanın əksər dövlətlərinin konstitusiya və milli qanunvericiliyində azad sahibkarlıq hüququ əks olunsa da, bu sahədə daha təkmil normaların müəyyən edilməsi zəruridir. Belə ki, insan hüquqlarının bir növü olan azad sahibkarlıq hüququnun daha dəqiq anlamı üçün bu hüququn struktur elementləri ətraflı şəkildə təsbit edilməlidir. Bu zaman inkişaf etmiş dövlətlərin qanunvericilik təcrübəsindən yararlanmaq, həmçinin müsbət və mənfi cəhətlərin üzə çıxarılması məqsədilə həmin dövlətlərin milli qanunvericiliyində azad sahibkarlıq hüququna göstərilən münasibətə diqqət yetirmək zəruridir.

4. Azad sahibkarlıq hüququ beynəlxalq sənədlərdə birbaşa olmasa da dolayı yolla (müxtəlif elementlərinin təcəssüm edilməsilə) müəyyən edilmişdir. Bunu nəzərə alaraq, azad sahibkarlıq hüququnu birbaşa təsbit edən beynəlxalq-hüquqi sənədlərin (universal və regional) məzmununun bir qədər də geniş şəkildə müəyyən edilməsinə (və ya yeni normaların qəbul edilməsinə) zərurət vardır.

5. Azad sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə hüquqi yardım kompleks xarakter daşıyır və mühüm əhəmiyyət kəsb edir. Azad sahibkarlıq fəaliyyəti subyektlərinə səmərəli hüquqi xidmət göstərilməsi vəzifəsi isə vəkillik institutunda son dövrlərdə aktual məsələlərdən birinə çevrilmişdir. Bunu nəzərə alaraq, dövlətimizdə vəkillik institutunun daha geniş inkişafı və təkmilləşdirilməsi istiqamətində mühüm addımların atılmasına zərurət vardır.

6. AR-də həyata keçirilən iqtisadi siyasətdə əlverişli biznes və investisiya mühiti yaranmaqla daxili və xarici investisiyaların cəlb edilməsi və qeyri-neft sektorunun güclü inkişafına nail olunması mühüm aktuallıq kəsb edir. Qeyri-neft sektorunun hərtərəfli, sürətli və səmərəli inkişafının təmin edilməsinin ən zəruri şərtlərindən biri sahibkarlığın inkişaf etdirilməsi, ilk növbədə kiçik və orta biznesin fəaliyyətinin effektivliyinin artırılmasından ibarətdir. Bundan başqa, ölkədə qadın sahibkarlığının inkişafını təmin edəcək düzgün proqramların və strategiyanın müəyyənləşdirilməsinə də ciddi zərurət vardır.



7. Azad sahibkarlıq hüququ müasir beynəlxalq hüquq qaydasının tərkib hissəsi olan insan hüquqlarının təmin edilməsi sistemində həyata keçirilməlidir. İnsan hüquqlarının təmin edilməsi isə beynəlxalq hüquq normalarına əsaslanmaqla beynəlxalq-hüquqi mexanizm vasitəsilə həyata keçirilməli, özündə ciddi milli-hüquqi implementasiyanı nəzərdə tutmaqla dövlətlərin bu sahədə milli hüquq sistemlərinin yaxınlaşmasını əsas götürməlidir. Eyni zamanda, bu sahədə beynəlxalq və milli hüquq normaları çərçivəsində məsuliyyət tədbirlərinin gücləndirilməsi azad sahibkarlıq hüququnu təmin etmək üçün mühüm amillərlən biri hesab olunmalıdır.

8. Azad sahibkarlığın inkişafı və azad sahibkarlıq hüququnun təmin edilməsi məqsədilə beynəlxalq-hüquqi əməkdaşlığın formalaşdırılması və genişləndirilməsi xüsusiyyətləri müəyyən edilməlidir. Bu baxımdan dövlətimizin Ümumdünya Ticarət Təşkilatına daxil olmasının azad sahibkarlıq hüququnun inkişafında mühüm rolu da xüsusi qeyd edilməlidir.

**Dissertasiya işinin nəzəri əsasları.** Dissertasiya işinin nəzəri əsası kimi Azərbaycan və xarici ölkə tədqiqatçılarının müvafiq sferada fundamental əsərləri, həmçinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və AR Prezidenti İlham Əliyevin nitqləri və çıxışlarında[12] problemlə bağlı irəli sürülən müddəalar və konseptual yanaşmalardan istifadə olunmuşdur.

Dissertasiya işində beynəlxalq hüquq sferasında tədqiqat aparan bir sıra yerli hüquqşünas alimlərin – Ə.İ.Əliyev, R.F.Məmmədov, L.H.Hüseynov, O.F.Əfəndiyev, Ə.İ.Sadıqov və b.; əcnəbi alimlərdən, ilk növbədə, rus ailmlərindən L.V.Andreyeva, V.S.Anoxin, V.A.Belov, V.S.Belıx, A.V.Busıgin, V.V.Vitryanskiy, E.P.Qubin, V.V.Quşin, İ.V.Yerşova, S.E.Jilinskiy, N.M.Korşunova, V.V.Laptev, S.N.Lebedev, V.S.Martemyanov, O.M.Oleynik, V.F.Popondolulo, M.Q.Rozenberq; Avropa və Amerikan alimlərindən A.R.Anderson, D.Deakins, M.C.Becker, D.Beunza, R.Cantillon, F.E.Klein, H.Matlay, L.Pittaway, J.A.Schumpeter, S.Shane və başqalarının əsərlərindən müqayisəli şəkildə istifadə edilmişdir.

**Dissertasiya işinin metodoloji əsasını** dialektikanın prinsip və kateqoriyaları təşkil edir. Ümumi elmi metodlarla yanaşı, digər metodlar da - tarixi, müqayisəli, məntiqi, sistemli-struktur və s. dissertasiyada diqqətlə təhlil edilmişdir.

**Dissertasiya işinin normativ bazasını** insan hüquqlarının müdafiəsi qəbul edilmiş beynəlxalq sənədlər, xüsusilə 1948-ci il tarixli İnsan hüquqları haqqında Ümumi Bəyannamə, 1950-ci il tarixli İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası, 1966-cı il tarixli Beynəlxalq Paktları, beynəlxalq hökumətlərarası təşkilatların qərar və qətnamələri, o cümlədən azad sahibkarlıq hüququ ilə bağlı

[12] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 46 clddə. Bakı, Azərnəşr, 1997-2013; Əliyev İ.H. İnkişaf məqsədimizdir. 10 cilddə. Bakı, Azərnəşr, 2008-2012.

məsələləri təsbit edən universal və regional beynəlxalq sənədlər, eləcə də dünya dövlətlərinin və AR-in azad sahibkarlıq hüququ sahəsində milli qanunvericiliyi və müvafiq sahələrdə ikitərəfli müqavilələr təşkil edir.

**Dissertasiya işinin praktiki əhəmiyyəti** azad sahibkarlıq hüququnun beynəlxalq və dövlətdaxili hüquqi normalar əsasında tənzimlənməsi haqqında biliklərin sistemləşdirilməsi, genişləndirilməsi və tətbiqi ilə bağlıdır. Dissertasiyanın əksər istiqamətləri üzrə irəli sürülmüş nəticə və təkliflər insan hüquqları prizmasından azad sahibkarlıq hüququnun müdafiəsi problemi, o cümlədən azad sahibkarlıq hüququ ilə əlaqədar beynəlxalq və dövlətdaxili normativ-hüquqi aktların işlənib hazırlanması və qəbul edilmiş normaların təkmilləşdirilməsi zamanı hüquqyaradıcılıq fəaliyyətində; azad sahibkarlıq hüququnun tənzimlənməsi və təmin edilməsi ilə əlaqədar konkret istiqamətlərin işlənilməsi üçün gələcək elmi tədqiqatlarda; AR ali məktəblərində insan hüquqları, ticarət hüququ, sahibkarlıq hüququ və s. üzrə dərslik, dərs vəsaitləri, o cümlədən tədris-metodik proqramların işlənib hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqat nəticələrinin aprobasiyası.** Dissertasiya işinin mühüm aspektləri ilə əlaqədar əsas məsələlər AR-də və xarici dövlətlərdə (Ukrayna, Moldova) nəşr olunan nüfuzlu elmi jurnallarda və beynəlxalq elmi-praktik konfrans materiallarında geniş çap olunmuşdur.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi struktur baxımından giriş, özündə 9 paraqrafı birləşdirən üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə çıxarılan əsas yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və dissertasiyanın strukturu haqqında məlumat verilir.

**I Fəsil "Azad sahibkarlıq hüququnun insan hüquqlarının müdafiəsi kontekstində formalaşması və inkişafı" adlanmaqla üç paraqrafı özündə birləşdirir.**

**Birinci paraqrafda** azad sahibkarlıq hüququnun anlayışı, məzmunu və spesifik xüsusiyyətləri tədqiq edilir. Azad sahibkarlıq vətəndaş cəmiyyətinin struktur elementi hesab edilir. Azad sahibkarlıq və təşəbbüskarlıq mühiti vətəndaş cəmiyyətinə xasdır. Vətəndaş cəmiyyətində dövlət strukturlarından fərqli olaraq şaquli (tabeçilik) əlaqələr yox, üfüqi əlaqələr üstünlük təşkil edir. Bazar iqtisadiyyatı, azad sahibkarlıq hazırda dünya iqtisadiyyatının inkişaf mexanizminin mərkəzində duran əsas həlqədir. Bazar münasibətlərinin əsasını iqtisadi azadlıq şəraitində təşəkkül tapan azad sahibkarlıq təşkil edir.

Hazırda ölkəmizdə hökm sürən iqtisadi vəziyyət bazar münasibətlərinin tam azad şəraitdə həyata keçirildiyini və bu münasibətlərin azad sahibkarlığın inkişafına təkan verən mütərəqqi qanunlarla tənzimləndiyini deməyə əsas verir. Azad sahibkarlıq özbaşınalıq, dövlətin nəzarətindən kənarda qalmaq demək



deyildir. Dövlət azad sahibkarlıq fəaliyyətini qanunvericiliklə, büdcə, vergi, maliyyə-kredit siyasəti ilə tənzimləyir.

Digər hüquqlar kimi azad sahibkarlıq hüququ da tarixən müxtəlif alimlərin əsərlərində tədqiq olunmuş və konseptual əsaslara söykənmişdir. Azad sahibkarlıq hüququ bazar iqtisadiyyatı şəraitində formalaşmışdır. Bazarın klassik formalarının yaranması hələ ibtidai cəmiyyətin dağıldığı və quldarlıq sisteminin yarandığı tarixi dövrə təsadüf etsə də, bazar iqtisadiyyatının formalaşması yalnız kapitalizm cəmiyyəti dövründə baş vermişdir. Elmi ədəbiyyatlarda azad sahibkarlıq fəaliyyətinin hüquqi tənzimlənməsinə və sahibkarlara münasibət birmənalı deyildir. İqtisadi inkişafın təmin olunmasında sahibkarlığın rolu, bu fəaliyyətin cəmiyyətə verdiyi fayda və mənfi nəticələri elmi mübahisələrin daimi mövzusuna çevrilmişdir. Adam Smitə görə, alıcı və satıcıların qarşılıqlı maraqları rəqabətli mübadilə vasitəsilə təmin olunduğu halda cəmiyyət inkişaf edir[13]. Ümumiyyətlə, sahibkarlıq anlayışını elmə ilk dəfə ingilis iqtisadçısı Riçard Kantilyon gətirmişdir. O, qeyd edir ki, sahibkar risklər şəraitində fəaliyyət göstərən insandır. R.Kantilyon torpağı və əməyi iqtisadi sərvətin mənbəyi hesab edir və maddi nemətlərin dəyərini bu amillərdə axtarır[14]. Bir qədər sonra D.Rikardo və K.Marksın əsərlərində sahibkar, istehsal prosesində fəaliyyət göstərən kapitalist kimi müəyyən edilirdi. Onun rolu işçi qüvvəsi tərəfindən yaradılan gəlirin mənimsənilməsindədir.

İlk dəfə olaraq, Y.Şumpeter sahibkarlığı yeni elmi konsepsiyalara əsaslanan iqtisadi inkişafın əsas amili və innovasiya fəaliyyəti kimi nəzərdən keçirmişdir. Müəllif sahibkarları iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi kimi təqdim edərək onları iki qrupa ayırmışdır - yenilikçilər və "gündəlik dövriyyə" ilə məşğul olanlar. O, məhz yenilikçi sahibkarları iqtisadi sistemi tarazlıq vəziyyətindən çıxaran, "istehsal amillərinin yeni kombinasiyası"nı təşkil etməklə daha yüksək nəticələrə istiqamətlənən və riskli fəaliyyətlə məşğul olan fərdlər kimi təqdim etmişdir[15].

Azad sahibkarlıq hüququ mülkiyyət, azadlıq kimi təbii hüquqları özündə cəmləşdirir. Eyni zamanda, azad sahibkarlıq hüququ əsas hüquqlardandır. Əsas hüquq dedikdə, beynəlxalq ictimaiyyət tərərfindən tanınan və qorunan insanların təbii hüquqları nəzərdə tutulur. Beynəlxalq ictimaiyyət həmin hüquqların qarantı, təfsiredicisi və nəzarətedicisi funksiyasını yerinə yetirir[16]. Azad sahibkarlıq hüququnun anlayış və məzmununun daha ətraflı şəkildə müəyyənliyi üçün ilk növbədə, bu anlayışın tərkib elementlərinə diqqət yetirmək lazımdır. AR Konstitusiyasının 59-cu maddəsində hüququn bu sahəsinə anlayış verilmişdir. Həmin maddədə qeyd edilir ki, hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və

---

[13] Ламбен Ж.Ж. Стратегический маркетинг. Европейская перспектива. СПб., Наука, 1996, с. 2.
[14] Richard Cantillon. Essay on the Nature of Trade. A new english translation. Translated by Chantal Saucier. Edited by Mark Thornton. London, Frank Cass and Co., LTD, 1959, p. 32.
[15] Шумпетер Й.А. Теория экономического развития. М., Прогресс, 1981, с. 401.
[16] Мучник А.Г. Философия достоинства, свободы и права человека. Киев, Парламентское издательство. 2009, с. 377, 415, 425.

ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər.

Beləliklə, yuxarıda qeyd edilənlərdən aşağıdakı struktur elementləri fərqləndirmək olar: azad sahibkarlıq fəaliyyəti; imkan və qabiliyyətdən sərbəst istifadə; əmlakdan sərbəst istifadə; təkbaşına və ya başqaları ilə birgə fəaliyyət; qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət.

Azad sahibkarlıq fəaliyyəti dedikdə, sərbəst bazar münasibətləri şəraitində əsas məqsədi gəlir əldə etmək olan, qanunla müəyyən edilmiş qaydada həyata keçirilən hüquqi və fiziki şəxslərin iqtisadi fəaliyyəti başa düşülür. Azad sahibkarlıq fəaliyyəti sahibkarlıq azadlığı və ya sahibkarlıq fəaliyyəti azadlığı kimi anlayışlarla sıx bağlıdır. Fikrimizcə, “sahibkarlıq azadlığı” kateqoriyası azad sahibkarlıq hüququnun bazasını təşkil edir. Buna görə də, həmin anlayışın izahına ehtiyac var. Azad sahibkarlıq fəaliyyətini həyata keçirən şəxs qanunla müəyyən edilmiş iqtisadi azadlıqlara malik olmalıdır. Belə iqtisadi azadlıqlardan biri sahibkarlıq azadlığıdır. Sahibkarlıq azadlığı şəxsin, sahibkarlıq və qanunla qadağan edilməyən digər təsərrüfat fəaliyyətinin həyata keçirilməsi üçün öz qabiliyyət və əmlakından istifadə hüququnu, müəssisə yaratmaq, istehsal vasitələrinə malik olmaq, əldə edilmiş gəlirə müstəqil sərəncam vermək hüququnu təcəssüm etdirir.

Qərb mütəxəssislərinin fikrincə, sahibkarlıq azadlığı əmtəə və xidmətlərin könüllü mübadiləsinə əsaslanan iqtisadi sistemdir. Bu cəmiyyətdə insanlar iqtisadi münasibətlərini özləri müəyyən edirlər, yəni harda işləmək, kiminlə ticarət aparmaq, hara investisiya yatırmaq haqqında qərar qəbul edirlər. Azad sahibkarlıq cəmiyyətində hökumətin rolu, insanların mülkiyyətinin qorunması, müqavilələrin yerinə yetirilməsinin təmin edilməsi, həmçinin vergilər, hökumət xərcləri, normativ aktlar kimi maneələr minimuma endirilməlidir.

Elmi ədəbiyyatlarda sahibkarlıq azadlığı konstitusion prinsip, bəzi hallarda isə subyektiv hüquq kimi qeyd edilir. Konstitusion prinsip kimi sahibkarlıq azadlığı növbəti elementləri özündə cəmləşdirir: fəaliyyət sferasının seçilməsi azadlığı; iqtisadi fəaliyyət növünün seçilməsi azadlığı; sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin təşkilati-hüquqi formasının seçilməsi azadlığı; öz qabiliyyətindən öz iradəsinə uyğun istifadə; biznes tərəfdaşının seçilməsi; sahibkarlıq qərarlarının realizəsinin müxtəlif formalarının seçimi; müqavilə bağlamaq azadlığı; müəssisə daxilində idarəetmənin azadlığı; hüquqların müdafiəsinə maneəsiz çıxış (adətən bu məsələ sahibkarlıq fəaliyyəti subyektlərinin yaradılması anında baş verir).

Konstitusion prinsip kimi sahibkarlıq azadlığı bir çox dövlətlərin (İtaliya, İspaniya və s.) konstitusiya və qanunlarında öz əksini tapmışdır. Fransada sahibkarlıq azadlığı konstitusion əhəmiyyətli prinsip kimi Konstitusiya Şurasının qərarı ilə bəyan edilmişdir. İspaniya Konstitusiyasının 38-ci maddəsində bazar iqtisadiyyatı çərçivəsində sahibkarlıq azadlığı tanınır. Xorvatiya Konstitusiyasının 49-cu maddəsində sahibkarlıq azadlığı Respublikanın iqtisadi quruluşunun əsası kimi müəyyən edilmişdir.



Azad sahibkarlıq hüququnun subyektləri dedikdə, həmin hüququn predmeti olan münasibətlərin iştirakçıları nəzərdə tutulur[17]. Azad sahibkarlıq hüququnun subyektləri müxtəlif meyarlara görə qruplaşdırılsa da, əsas təsnifat meyarı kimi hüquqi və fiziki şəxslərə bölgü irəli sürülür. Fiziki şəxslər, yəni hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən rezident və qeyri-rezident fiziki şəxslərdir. Hüquqi şəxslər kommersiya və qeyri-kommersiya təşkilatlarıdır.

Beləliklə, azad sahibkarlıq hüququ ölkədə sabit iqtisadi inkişafın əsasında dayanan vacib şərtlərdən biri olmaqla, insanların (həm tək, həm də birgə şəkildə) qanunlara riayət etmək şərtilə öz hüquq və fəaliyyət qabiliyyətindən, bilik və bacarığından faydalanmaqla sərbəst şəkildə sahibkarlıq fəaliyyətini həyata keçirməsi azadlığıdır. Bu hüququn əsasında sərbəst şəkildə realizə olunan azad sahibkarlıq fəaliyyəti dayanır. Azad sahibkarlıq fəaliyyətinin subyekti sahibkarlıq azadlığına malik olmalıdır. Sahibkarlıq azadlığı inhisarçılığa və haqsız rəqabətə səbəb olmamalıdır.

**İkinci paraqrafda** azad sahibkarlıq hüququnun insan hüquqları sistemində yeri və normativ-hüquqi əsasları: xarici ölkələrin və AR qanunvericiliyinin müqayisəli təhlili tədqiq edilir. İnsan hüquqları hər bir insanın mövcudluğunun və birgə yaşayışının bünövrəsi olmaqla, müasir dünyada sülhün və tərəqqinin ifadəsidir. İnsan hüquqları həqiqətən heç bir mədəniyyətə yad deyil və bütün millətlərə xasdır. İnsan hüquq və azadlıqlarının pozulması nəinki şəxsiyyətə qarşı yönəlmiş bir haldır, həm də sosial və siyasi problem olmaqla dövlətlə cəmiyyət arasında tarazlığın pozulmasına, cəmiyyətin özündə zorakılıq və konfliktlərə səbəb olur[18].

İnsan hüquqlarının sistemi dedikdə, həmin hüquq və azadlıqların üzvi bağlılığı və müəyyən təsnifatlara uyğun şəkildə qruplaşdırılması nəzərdə tutulur. İnsan hüquqlarının təsnifatı ilə bağlı elmi ədəbiyyatlarda müxtəlif fikirlər var. Geniş yayılmış təsnifata görə insan hüquqlarının 3 nəsli fərqləndirilir. Fransız alimi K.Vasak[19] tərəfindən irəli sürülmüş bu konsepsiyaya görə birinci nəslə vətəndaş hüquqları və siyasi hüquqlar, ikinci nəslə sosial-iqtisadi və mədəni hüquqlar, üçüncü nəslə kollektiv hüquqlar və ya həmrəylik hüquqları aiddir.

Azad sahibkarlıq hüququ bu təsnifatlar arasında birbaşa müəyyən edilməsə də, onunla əlaqəli hüquqlar (məsələn, azadlıq hüququ, birləşmək hüququ, sərbəst hərəkət etmək hüququ, mülkiyyətin müdafiəsi, əmək hüququ, minimal həyat səviyyəsi hüquq) həm birinci, həm də ikinci nəsil hüquqlara aiddir.

Azad sahibkarlıq hüququnun insan hüquqları sistemində yeri məsələsini tədqiq edərkən, bu hüququn digər insan hüquq və azadlıqları ilə qarşılıqlı əlaqəsi məsələsinə də mütləq toxunulmalıdır. Azad sahibkarlıq hüququ və bu hüququn realizəsi olan azad sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməyən digər iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün ən vacib şərt həmin hüququn subyektinin azadlığı və sərbəstliyidir. Məsələn, azadlığı və sərbəstliyi olmayan fərd azad sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməz.

---

[17] Hitender Mehta. Limited Liability Partnerships Law and Practice. CHH Wolter Kluwer Business. 2012, p. 225.
[18] Essentials of Health Care Finance. William Cleverley, Paula Song, James Cleverley. 2010, p. 125.
[19] Hüseynov L. Beynəlxalq hüquq. Dərslik. Hüquq Ədəbiyyatı Nəşriyyatı, 2002, s. 181.

Azad sahibkarlıq hüququnun tərkib elementlərindən olan şəxsin öz imkan və qabiliyyətindən sərbəst istifadəsi anlayışının bazasında şəxsiyyətin azadlığı prinsipi dayanır. Azad sahibkarlıq hüququnu həyata keçirən şəxs azadlıq hüququnun komponentləri olan hərəkət etmək, fəaliyyət azadlığı, əmək və yaradıcılıq azadlığından istifadə edir. Beləliklə, azad sahibkarlıq hüququnun formalaşması və realizəsi azadlıq hüququndan bilavasitə asılıdır.

Azad sahibkarlıq hüququ ilə əlaqəli hüquqlardan biri mülkiyyət hüququdur. Bu hüquq bəzi sənədlərdə mülkiyyətin müdafiəsi, mülkiyyət azadlığı kimi də göstərilir[20]. AR Konstitusiyasında bu hüquq öz təsbitini tapmışdır. Konstitusiyaya əsasən mülkiyyət hüququ qanunla qorunur. Hər kəsin mülkiyyətində daşınar və daşınmaz əmlak ola bilər. Mülkiyyət hüququ təkbaşına və ya başqaları ilə birgə həyata keçirilə bilər. Şəxs maddi və qeyri-maddi nemətlər üzərində mülkiyyət hüququna malik ola bilər. Qeyri-maddi nemətlərə sahiblik dedikdə, əqli mülkiyyət hüququn həyata keçirilməsi nəzərdə tutulur.

Azad sahibkarlıq hüququnun təkbaşına və başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti elementinin bazasında birləşmək hüququ dayanır. Bu hüququn milli qanunvericiliyimizdə normativ əsasını Konstitusiyanın 58-ci maddəsi təşkil edir. Həmin maddədə qeyd edilir ki, hər kəsin başqaları ilə birləşmək hüququ vardır. Hər kəs istənilən birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir. Ümumiyyətlə, birləşmək hüququ və azad sahibkarlıq hüququnun subyektləri məsələsi əlaqəlidir, konkret olaraq birləşmək hüququ olmadan hüquqi şəxslərin azad sahibkarlıq hüququ (kollektiv sahibkarlıq) məsələsi də olmur.

Azad sahibkarlıq hüququna verilən anlayışdakı hər kəsin öz imkan və qabiliyyətindən sərbəst istifadəsi ünsürü məhz əmək hüququnun realizəsi fonunda mümkün hesab olunur. Əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır. Azad sahibkarlıq fəaliyyəti də bura daxildir. Heç kəs zorla işlədilə bilməz – bu norma hər kəsin öz imkan və qabiliyyətindən sərbəst istifadəsi, yəni sərbəstlik meyarını müəyyən edir. Qanunvericilikdə bu normanın istisnası da müəyyən edilmişdir, belə ki, Məhkəmə qərarı əsasında şərtləri və müddətləri qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir.

Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirərək belə qənaətə gəlirik ki, azad sahibkarlıq hüququ – AR-in hər bir vətəndaşı; mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslər; hər bir xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs; xarici hüquqi şəxslər tərəfindən gəlir əldə etmək məqsədilə qanunvericiliklə müəyyən edilmiş qaydada (dövlət qeydiyyatından keçməklə) hüquq və fəaliyyət qabiliyyətindən, maddi və qeyri-maddi nemətlər üzərində sərbəst şəkildə (qanuni

[20] Law Dictionary. Steven H. Gifis. Barron's Educational Series 2010, p. 56.



məhdudiyyətlər istisna olmaqla) mülkiyyət hüququnu (istifadə, sahiblik və ya sərəncam hüququ) həyata keçirməklə fərdi və ya kollektiv formada qanunla müəyyən edilmiş iqtisadi fəaliyyət növünün (əsasən də azad sahibkarlıq fəaliyyətini) həyata keçirilməsini özündə təcəssüm etdirir.

Azad sahibkarlıq hüququnun normativ əsası dedikdə, bu hüququn beynəlxalq və ya dövlətdaxili normativ-hüquqi aktlarda öz təsbitini tapması nəzərdə tutulur. Bu və ya digər hüququn normativ əsasa malik olması vacib şərtdir, əks halda həmin hüququn realizəsi və ya müdafiəsi mümkün olmur. Əksər dövlətlərin daxili qanunvericilik aktlarında azad sahibkarlıq hüququna birbaşa və ya dolayı şəkildə anlayış verilir və bu hüququn tənzimlənmə yolları göstərilir. AR-də azad sahibkarlıq hüququ ilə bağlı məsələlər Konstitusiya, məcəllələr, müxtəlif qanunvericilik aktlarında təsbit edilmişdir. Xarici ölkələrin qanunvericilik sistemində azad sahibkarlıq hüququnun mənbəyi qismində qanunlar, icra hakimiyyəti orqanlarının aktları, məhkəmə praktikası, beynəlxalq müqavilələr və adət normaları çıxış edir. Ümumiyyətlə, inkişaf etmiş bazar iqtisadiyyatına malik dövlətlərdə sahibkarlıq münasibətlərinin hüquqi tənzimlənməsində müəssisə - əmlak obyekti kimi mərkəzi elementlərdən hesab olunur[21]. Bundan əlavə, xarici ölkələrin sahibkarlıq münasibətlərində biznes-borc məsələsini xüsusi önəm verilir. Belə ki, keçmiş borclarını tam icra etməyən müəssisə gəlir gətirən yeni aktivlər əldə etmək hüququndan məhrum olur[22]. Xarici ölkələrin milli qanunvericiliklərində qeyd edilən məsələdə tarazlığın əldə edilməsinə cəhd göstərilir.

**Üçüncü paraqrafda** azad sahibkarlıq hüququnun realizəsi və müdafiəsi problemi tədqiq olunur. Bu paraqraf iki yarımparaqrafa bölünmüşdür. Birinci yarımparaqrafda azad sahibkarlıq hüququnun realizəsi: əsas xüsusiyyətlər və istiqamətlər, ikinci hissədə azad sahibkarlıq hüququnun müdafiəsi, sahibkarların hüquqlarının və qanuni maraqlarının müdafiəsi, hüquqi müdafiə mexanizmləri ilə bağlı məsələlər hərtərəfli araşdırılmışdır.

AR Konstitusiyasının 15.2-ci maddəsində qeyd olunur: «Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilmir». Bu maddə birbaşa olaraq AR-in iqtisadi əsaslarını və əsas xüsusiyyətlərini göstərir.

Konstitusion hüquq olan azad sahibkarlıq hüququnun realizəsi, xüsusilə də konstitusion realizəsi problemi, bu realizənin konstitusion-hüquqi mexanizmi xüsusi aktuallıq kəsb edən məsələlərdir. Azad sahibkarlıq hüququnun konstitusion-hüquqi realizəsi prosesində bu prosesin iştirakçıları olan sahibkar (və ya hüquqi şəxs) və dövlətin fəaliyyəti də mühüm əhəmiyyət kəsb edir. Azad sahibkarlıq hüququnun subyekti öz iradəsini ifadə edirsə, dövlət isə bu hüququn realizəsinə və ya hüquq subyektinin öz iradə ifadəsinə şərait yaradır.

[21] Dunfee T.W. Modern Business Law and the Regulatory Environment. New-York., 1996., p. 11; Gower C. Modern Company Law. London, 1954, p. 13.
[22] Dauber N.A., Siegel J.G., Shim J.K. The Vest-Pocket CPA. New-York, 1997., p. 125. Marwick P. Business Combinations Handbook. USA., 1996, p. 69.

Azad sahibkarlıq hüququ subyektinin iradə ifadəsi dedikdə, a) fəaliyyət növünün seçilməsi, azad sahibkarlıq fəaliyyətinin təşkilati-hüquqi formasının seçimi; b) dövlət qeydiyyatından keçməklə azad sahibkarlıq fəaliyyətinin müvafiq növünü seçməsi (fərdi sahibkarlıq və ya kollektiv sahibkarlıq); c) əmtəə istehsalı, işlərin görülməsi, xidmət göstərilməsi, əqdlərin bağlanması; ç) realizənin nəticəsi olan sosial rifahdan istifadə başa düşülür.

Azad sahibkarlıq hüququnun realizəsinə münasibətdə dövlətin rolu ondadır ki, dövlət bu istiqamətdə aktiv siyasət yeridir və qanunvericiliyi təkmilləşdirir. Azad sahibkarlıq hüququnun realizəsinin iki qrup tədbirlərini ayırd etmək olar: 1) ümumi (sosial, iqtisadi, texniki, dini-mədəni və digər qeyri-hüquqi) və sırf hüquqi (qanunverici, hüquq tətbiqi, hüquq-mühafizə) xarakterli tədbirlər.

Azad sahibkarlıq hüququnun konstitusion-hüquqi realizəsi mexanizmində məhdudlaşdırma problemi mühüm əhəmiyyət kəsb edir. Bu məsələ azad sahibkarlıq hüququnun sahəvi qanunvericilikdə optimal şəkildə konkretləşdirilməsi, onun müdafiəsi və qarantiyası ilə sıx bağlıdır.

Hazırda qeyd edilən problem aktualdır, belə ki, ilk növbədə, hüququn həyata keçirilməsi sahəvi qanunvericilikdə nə dərəcədə konkretləşdirilməsindən asılıdır, ikincisi, məhdudlaşdırma hüququn realizəsinin minimuma endirilməsinə (və ya cılızlaşdırılmasına) səbəb olmamalıdır. Azad sahibkarlıq hüququnun konstitusion-hüquqi məhdudlaşdırılması məsələsində "öhdəlik", "qadağa", "məsuliyyət" kimi anlayışlar tez-tez tətbiq olunur. Sahibkarın hüquq və vəzifələrinin məcmusu onun hüquqi statusunu formalaşdırır. Sahibkarların hüquq və vəzifələri sahibkarlıq münasibətlərinin məzmununu təşkil edir. Sahibkarların hüquqlarının müdafiəsi normativ şəkildə müəyyən edilmiş sahibkarların hüquqlarının realizəsi üzrə mexanizmlər, tədbirlər, üsul və vasitələrdən ibarət, pozulmuş hüquqların bərpası, mübahisələrin həlli üzrə kompleks hüquq kateqoriyasını özündə əks etdirir.

Sahibkarların və müəssisələrin hüquq və maraqlarının müdafiəsinin hüquqi mexanizmlərini şərti olaraq hüquqi təhlükəsizliyin daxili və xarici təminat tədbirlərinə ayırmaq olar. Hüquqi təhlükəsizliyin daxili tədbirlərinə mühasibat, hüquq bölmələri, təhlil və nəzarət xidməti, mühafizə sistemi və s. aid etmək olar. Xarici tədbirlərə hüquq-mühafizə orqanlarının (prokurorluq, polis, vergi, gömrük, məhkəmə, arbitraj və s.) fəaliyyətini aid etmək olar. Ümumilikdə, sahibkarların və müəssisələrin hüquqlarının və qanuni maraqlarının müdafiəsi üzrə hüquqi mexanizmlərə məhkəmə, vəkilin köməyi, arbitraj, sığorta, həmkarlar, audit, ticarət-sənaye palataları, alternativ mexanizmlər daxildir.

AR-də son illər ərzində aparılan məhkəmə-hüquq islahatları sayəsində tamamilə yeni və beynəlxalq standartlara cavab verən, vətəndaşların hüquq və azadlıqlarının daha da etibarlı müdafiəsini təmin edən müasir məhkəmə sistemi yaradılmış və bu sahədə əldə edilmiş nailiyyətlər və qabaqcıl təcrübə ölkəmizdə bu islahatlara önəmli dəstək verən Avropanın aparıcı dövlətləri tərəfindən də etiraf olunmaqdadır.

AR Prezidenti cənab İlham Əliyevin 2010-cu il 22 iyun tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi ilə



bağlı bəzi tədbirlər", "Məhkəmələr və hakimlər haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" AR qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Qanunla yerli iqtisad məhkəmələrinin bazasında inzibati-iqtisadi məhkəmələr yaradılmış və 2011-ci ilin yanvar ayının 1-dən "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin təsdiq edilməsi haqqında" AR-in 30 iyun 2009-cu il tarixli Qanunu ilə qəbul edilmiş AR İnzibati Prosessual Məcəlləsi və "İnzibati İcraat haqqında" Qanun Respublika ərazisində qüvvəyə minmişdir.

Hüquqi yardım almaq hüququ insan hüquqları sistemində özünəməxsus yer tutmaqla həm beynəlxalq, həm də dövlətdaxili normativ-hüquqi aktlarda öz əksini tapmışdır. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının ədalətli məhkəmə hüququ adlı 6-cı maddəsində qeyd edilir ki, hər kəs onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Yüksək keyfiyyətli hüquqi yardım almaq üçün hər bir şəxs hüquq məsləhətxanasına müraciət edərək ali hüquq təhsili olan təcrübəli vəkillərin xidmətindən istifadə edə bilər. Vəkillərin fəaliyyətinin qanunvericiliklə tənzimlənməsi vətəndaşlara çəkinmədən hüquqi yardım üçün onlara müraciət etməyə, mülki və cinayət işinin sirr saydıqları müxtəlif hallarını vəkilə açmağa imkan verir. Vəkil müştərinin etibar etdiyi məlumatları yaymağa haqlı deyildir. O həmin məlumatların məzmunu haqqında şahid qismində dindirilə bilməz.

Məhkəmə müdafiəsinin əhəmiyyəti ondadır ki, bu üsulun tənzimlənməsi vasitəsilə prosessual hüquq maddi hüququn reallığını təmin edir[23]. Milli qanunvericiliyimizdə məhkəmə müdafiəsi ilə bağlı əsas konstitusion norma Konstitusiyanın 60-cı maddəsidir. Həmin maddədə qeyd edilir ki, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.

Respublika məhkəmələri tərəfindən sahibkarlıq fəaliyyəti ilə əlaqədar baxılmış işlər üzrə məhkəmə təcrübəsi bəzi hallarda, maddi və prosessual hüquq normalarının pozulmasına, yaxud da düzgün tətbiq olunmamasına, qanunun tələblərinə uyğun olmayan məhkəmə aktlarının qəbul edilməsinə də təsadüf olunur. Belə ki, sahibkarlıq fəaliyyəti ilə əlaqədar işlər üzrə iddia ərizələrinin icraata qəbul olunmasında, aidiyyət məsələlərinin həllində, apellyasiya və kassasiya şikayətlərinin icraata qəbul olunmasında, icarə və borc münasibətlərini nizama salan qanunların tətbiqində səhvlərə yol verilir. Həmin qəbildən olan cinayət işlərinə baxılarkən, sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə qanunsuz olaraq müəyyən vəzifə tutma və müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəzalar təyin edilir.

Azad sahibkarlıq fəaliyyəti subyektlərinə hüquqi xidmət göstərilməsi vəzifəsi vəkillik üçün son dövrlərdə aktual məsələlərdən birinə çevrilmişdir. Azad

[23] Лопес-Пина А. Судебная защита основных прав в Испании. Защита прав человека в современном мире. Отв. ред. И.А.Ледях. М., 1993. с. 83-87.

sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə hüquqi yardım kompleks xarakter daşıyır. Onun göstərilməsi zamanı hüququn müxtəlif sahələrindən mütəxəssislər cəlb edilir. Məsələn, kommersiya hüquqi şəxslərə xidmət göstərərkən vəkil, bank sektoru, vergi, gömrük, hətta prokuror nəzarəti, arbitraj prosesi kimi sferalara da toxunmaq məcburiyyətində qalır.

**II Fəsil "Azad sahibkarlıq hüququnun tənzimlənməsinin beynəlxalq-hüquqi əsasları" adlanır və üç paraqrafı özündə təsbit edir.**

**Birinci paraqrafda** insan hüquqlarının müdafiəsi ilə bağlı universal beynəlxalq müqavilələrdə azad sahibkarlıq hüququnun tənzimlənməsi xüsusiyyətləri müəyyən edilmişdir. Azad sahibkarlıq hüququnun beynəlxalq-hüquqi əsaslarını insan hüquqlarının müdafiəsi sahəsində universal xarakterli fundamental sənədlər olan 1948-ci il tarixli İnsan hüquqları haqqında Ümumi Bəyannamə, 1966-cı il tarixli Beynəlxalq Paktları və s. beynəlxalq sənədlər təşkil edir[24].

10 dekabr 1948-ci il İnsan hüquqları haqqında Ümumi Bəyannamədə həm mülki və siyasi, həm də sosial, iqtisadi və mədəni hüquqların geniş siyahısı verilmişdir. Bəyannamə insan hüquqlarının təbii xarakterini tanıyır və bütün insanların öz ləyaqət və hüquqlarında azad və bərabər doğulduqlarını bəyan edir[25]. Bəyannamə hər bir insanın irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, silk mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan bütün hüquqlara və bütün azadlıqlara malik olmasını müəyyən edir. Bəyannamədə insanların yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüquqları bəyan edilir. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 1-ci maddəsində qeyd edilir ki, bütün xalqlar özünü müəyyənetmə hüququna malikdirlər. Bu hüquq sayəsində onlar öz siyasi statuslarını sərbəst müəyyən edir və öz iqtisadi, sosial və mədəni inkişaflarını sərbəst təmin edirlər. Bütün xalqlar öz məqsədlərinə nail olmaq üçün qarşılıqlı fayda prinsiplərinə əsaslanan beynəlxalq əməkdaşlıqdan və beynəlxalq hüquqdan irəli gələn hər hansı bir öhdəliyə ziyan vurmadan öz təbii sərvətləri və ehtiyatlarını sərbəst şəkildə sərf edə bilərlər[26].

İqtisadi, sosial və mədəni hüquqlar haqqında 1966-cı il Beynəlxalq Paktının 1.2-ci maddəsinə əsasən bütün xalqlar öz məqsədlərinə çatmaq üçün mənfəət prinsiplərinə əsaslanan beynəlxalq iqtisadi əməkdaşlıqdan və beynəlxalq hüquqdan irəli gələn hər hansı öhdəliklərə zərər vurmadan öz təbii sərvət və ehtiyatlarından azad şəkildə istifadə etmək hüququna malikdirlər. Paktda hüquqların məhdudlaşdırılması ilə bağlı qeyd edilir ki, bu Paktda iştirak edən dövlətlər etiraf edirlər ki, bu Pakta əsasən təmin etməyi öhdələrinə götürdükləri hüquqlardan istifadəni yalnız bu hüquqların təbiətinə uyğun olduğu qədər və yalnız demokratik cəmiyyətin ümumi rifahının yaxşılaşdırılması məqsədilə, qanunla müəyyənləşdirilən dərəcədə məhdudlaşdıra bilərlər.

[24] İnternational Human Rights in Context. Text and materials. Steiner J.H, Alston P., Goodman R. Oxford, Oxford University Press, 2007, p. 151-280..
[25] Лукашева Е.А. Права человека. Учебник. 2-е изд., перераб. М., Норма: ИНФРА-М, 2009, с. 473.
[26] The Law of International Human Rights Protection. Walter K., Kunzli J. Oxford, Oxford University Press, 2009, p. 13-27.



İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktda əmək hüququ bir qədər təkmil şəkildə müəyyən edilmiş və azadlıq kateqoriyası ilə uyğunlaşdırılmışdır. Azad şəkildə əmək fəaliyyəti kateqoriyası azad sahibkarlıq hüququna çox yaxındır. Həmin maddədə qeyd edilir ki, bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin azad seçdiyi və ya könüllü razılaşdığı işlə həyatını təmin etmək hüququnu əhatə edən əmək hüququnu tanıyırlar və bu hüququn təmin olunması üçün müvafiq addımlar atacaqlar. Bu Paktda iştirak edən dövlətlər tərəfindən bu hüququn tam təmin olunması məqsədilə gördüyü tədbirlərə texniki-peşə təhsili və hazırlığı proqramları, insanların əsas siyasi və iqtisadi hüquqlarının təmin olunduğu şəraitdə durmadan iqtisadi, sosial və mədəni inkişafa, tam və məhsuldar məşğulluğa nail olmağın yolları və üsulları daxildir.

Məlum olduğu kimi ölkəmiz Ümumdünya Ticarət Təşkilatına üzv olmaq ərəfəsindədir. Ümumdünya Ticarət Təşkilatının üzv olmaq istəyən dövlətlər qarşısında əsas tələblərindən biri ölkənin müəssisələri tərəfindən beynəlxalq standartların qəbuluna şərait yaradılmasıdır. Bu baxımdan ölkəmizdə beynəlxalq standartların müəssisələr tərəfindən tətbiqinə şərait yaradılmalıdır. Lakin, bundan əvvəl ölkəmizdə beynəlxalq standartların tətbiqi sahəsində mövcud vəziyyət dərindən araşdırılmalı və əldə olunan nəticələr əsasında müxtəlif tədbirlər görülməlidir. AR-də beynəlxalq standartların tətbiqi yeni təcrübə olduğundan və bəzi sertifikatlaşdırma firmalarının bundan öz xeyrinə məharətlə istifadə etməsi bu bazarda bir çox problemlərin mövcudluğuna zəmin yaradır. AR-in Ümumdünya Ticarət Təşkilatına üzv olması öhdəliklərinin götürülməsi üzrə müəyyən tələblər mövcuddur: qiymət, vergi, subsidiya, kompensasiya, gömrük rəsmiləşdirilməsi. Qeyd etdiklərimizlə yanaşı, üzvlüyün ölkəmiz üçün iqtisadi əhəmiyyəti də vardır. Belə ki, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olacağı təqdirdə qanunvericilikdə dəyişikliklərlə bağlı tədbirlər planı həyata keçirilməlidir. Bu dəyişikliklər AR-də biznes mühitinin inkişafında böyük rol oynayacaq, iqtisadi tənzimetmə qanunları dünya standartlarına cavab verəcəkdir.

Azad sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sahəsində müxtəlif yönümlü beynəlxalq müqavilələr bağlanmışdır: alqı-satqı, barter, agent sazişləri, konsiqnasiya, komissiya, lisenziya sazişləri, lizinq, faktorinq, reklam, sığorta, dəniz, dəmir yol, hava və avtomobil daşımaları və s.

Həmin müqavilələr arasında növbətiləri qeyd etmək olar: Əmtəələrin beynəlxalq alqı-satqısı müqavilələri haqqında BMT Konvensiyası (1980-ci il Vyana Konvensiyası); Əmtəələrin beynəlxalq alqı-satqısında iddia müddəti haqqında 1974-cü il tarixli Konvensiya; Əmtəələrin beynəlxalq alqı-satqısı müqaviləsinə tətbiq edilən hüquq haqqında 1986-cı il tarixli Haaqa Konvensiyası; Əmtəələrin beynəlxalq alqı-satqısında nümayəndəlik haqqında 1983-cü il tarixli Cenevrə Konvensiyası; "Beynəlxalq maliyyə lizinqi haqqında" və "Beynəlxalq faktorinq haqqında" Ottava konvensiyaları və s.

Eyni zamanda, Respublikamızın qoşulduğu beynəlxalq müqavilələrə də nəzər yetirilmişdir. Həmin müqavilələrdən 15 noyabr 1975-ci il tarixli Beynəlxalq avtomagistrallar haqqında Avropa Sazişi; 3 avqust 1973-cü il tarixli Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa

Sazişi; 5 aprel 1966-cı il tarixli Yük nişanlanması haqqında Beynəlxalq Konvensiya; Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafına dair beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş; İqtisadi Əməkdaşlıq Təşkilatının Tranzit daşımaları üzrə Çərçivə Sazişi; Beynəlxalq hava daşımalarına aid bəzi qaydaların unifikasiyası üçün 1929-cu il 12 oktyabr tarixli Varşava Konvensiyası; Beynəlxalq yük daşınma müqaviləsi haqqında 1956-cı il 19 may tarixli Konvensiya; 1956-cı il 18 may tarixli Yol nəqliyyat vasitələrinin ticarət və kommersiya məqsədi ilə müvəqqəti idxalının Gömrük Konvensiyası; Ümumdünya Əqli Mülkiyyət Təşkilatının 1971-ci il 29 mart tarixli Beynəlxalq patent təsnifatı haqqında Strasburq Sazişi; Ümumdünya Əqli Mülkiyyət Təşkilatının 1957-ci il 15 iyun tarixli Nişanların qeydiyyatı üçün əmtəə və xidmətlərin beynəlxalq təsnifatı barədə Nitsa Sazişi; Ümumdünya Əqli Mülkiyyət Təşkilatının 1968-ci il 8 oktyabr tarixli Sənaye nümunələrinin beynəlxalq təsnifatının təsisi haqqında Lokarno Sazişi; Çeklər üzrə Vahid Qanun haqqında Konvensiya; Köçürmə və sadə veksel üzrə Vahid Qanun haqqında Konvensiyanı və s. qeyd etmək olar.

**İkinci paraqraf** regional beynəlxalq-hüquqi aktlarda azad sahibkarlıq hüququnun tənzimlənməsi probleminə həsr olunmuşdur. Universal beynəlxalq-hüquqi aktlardan fərqli olaraq, regional sənədlərdə müvafiq regionun özəllikləri, sosial-iqtisadi üstünlük və çatışmazlıqları nəzərə alınır.

Azad sahibkarlıq hüququ və onun mühüm elementləri, bu hüquqla birbaşa əlaqəli olan mülkiyyət hüququ, əmək hüququ, birləşmək hüququ insan hüquqlarının müdafiəsinə yönəlmiş müxtəlif beynəlxalq-hüquqi aktlarda öz təsdiqini tapmışdır. Belə sənədlərə aşağıdakıları aid etmək olar: İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası; Avropa Sosial Xartiyası; Yeni Avropa üçün Paris Xartiyası; Müqavilə öhdəliklərinə tətbiq olunan hüquq haqqında Avropa İttifaqı Konvensiyası; İnsan hüquqlarının müdafiəsi üzrə MDB Konvensiyası; Təsərrüfat fəaliyyətinin həyata keçirilməsi ilə bağlı mübahisələrin həlli qaydası üzrə Saziş; İnsan hüquqları üzrə Amerikaarası Konvensiya; Beynəlxalq müqavilələrə tətbiq olunan hüquq haqqında Amerikaarası Konvensiya; İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyası və s.

Respublikamız 1950-ci il noyabrın 4-də Roma şəhərində imzalanmış "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını və onun 1, 4, 6 və 7 saylı Protokollarını müvafiq bəyanatlar və qeyd-şərtlərlə 25 dekabr 2001-ci il tarixdə ratifikasiya etmişdir. Roma Konvensiyasında azad sahibkarlıq hüququ birbaşa təsbit edilməmişdir, lakin Konvensiyanın müxtəlif maddələrində bu hüququn məzmun və mahiyyəti geniş şəkildə öz təsbitini tapmışdır. Xüsusilə də, azadlıq və toxunulmazlıq hüququ (m. 5), yığıncaqlar və birləşmək azadlığı (m. 11), mülkiyyətin müdafiəsi (1 saylı Protokol m. 1), hərəkət etmək azadlığını (4 saylı Protokol) qeyd etmək lazımdır[27].

İnsan hüquqlarının müdafiəsi üzrə MDB Konvensiyasının müxtəlif maddələrində azad sahibkarlıq hüququnun elementləri öz təsbitini tapmışdır.

[27] Ovey Clare and White Robin. The European Convention on Human Rights. Third Edition. Oxford. Oxford University Press. 2002, p. 263.



Məsələn, azad sahibkarlıq hüququnun elementlərindən olan azadlıq və sərbəstliklə bağlı Konvensiyanın 4-cü maddəsində belə bir müddəa qeyd edilir ki, heç kim icbari əməyə məcbur edilə bilməz. Hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır. Qanunvericiliklə müəyyən edilmiş məhdudiyyətlər istisna olmaqla heç kim azadlıqdan məhrum edilə bilməz (md. 5).

Avropadan fərqli olaraq, Amerika regionunda insan hüquq və azadlıqlarının müdafiəsi sistemi nisbətən zəngin xarakterə malik deyildir. Amerikaarsı konvensiyada elan edilmiş hüquq və azadlıqlar siyahısında Mülki və siyasi hüquqlar haqqında Paktda təsbit edilmiş xalqların özünü müəyyənetmək, etnik, din və dil azadlıqlarının öz mədəniyyətindən istifadə etmək hüququ, öz dininə etiqad, adət və ənənələrini gözləmək, eləcə də ana dilindən istifadə və s. hüquqların bəziləri əks olunmamışdır[28].

Amerikaarası Konvensiya Latın Amerikası qitəsində yaranmış real həyat və sosial-iqtisadi şəraiti nəzərə almadan tərtib edilmişdir. Latın Amerikasının bir sıra ölkələrinin xalqları nəinki sosial-iqtisadi, həmçinin elementar mülki və siyasi hüquqlardan məhrumdurlar. Bu ölkələrdən bəziləri insan hüquqları üzrə Amerikaarası Konvensiyanı təsdiq etmiş, onda təsbit olunmuş insan hüquq və azadlıqlarının gözlənilməsini özlərinə öhdəlik götürmüşlər[29]. Asiyada insan hüquqlarının müdafiəsi üzrə institusional mexanizmlərin fəaliyyəti zəifdir[30]. Asiya ölkələrindən fərqli olaraq, Afrika dövlətləri iştirakçı-dövlətlərin vəzifələrini və Qitənin spesifik xüsusiyyətlərini nəzərə alan İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyasını qəbul edərək 1981-ci ildə insan hüquqları üzrə regional təşkilat yaratdılar. Xartiyada əsas insan hüquqları və azadlıqları müəyyən edilmişdir. Hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır. Əvvəlcədən qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kim azadlıqdan məhrum edilə bilməz. Xüsusilə də, heç kəs əsassız saxlanılma və həbsə məruz qala bilməz (md. 6). Qanuna riayət etmək şərtilə hər kəsin birləşmək azadlığı hüququ var. Fərdi hüquqlarla yanaşı, Xartiyada kollektiv hüquqlar da öz əksini tapmışdır: xalqların özünü müəyyən etməsi hüququ, təbii resursların suverenliyi, xalqların inkişafı hüququ, sülh hüququ, əlverişli ətraf mühit hüququ[31]. Xartiyanın vacib maddələrindən biri mülkiyyət hüququnu bəyan edən 14-cü maddədir. Həmin maddəyə əsasən, mülkiyyət hüququna təminat verilir. Bu hüquq ictimai zərurət və ya bütün cəmiyyətin maraqları naminə, həmçinin müvafiq qanunların müddəalarına uyğun olaraq istisna edilə bilər.

**Üçüncü paraqrafda** azad sahibkarlıq hüququnun insan hüquqları aspektindən beynəlxalq-hüquqi tənzimlənməsi sferasında əsas prinsiplər təhlil edilir. Hər bir dövlətin insan hüquqlarına hörmət və əməl etmək öhdəliyi bilavasitə müasir beynəlxalq hüququn əsas prinsiplərindən biri olan insan hüquqlarına hörmət etmək prinsipindən irəli gəlir. İnsan hüquqlarına hörmət prinsipinin məzmunu isə,

[28] Newman F., Weissbrodt. International Human Rights. Law, Policy and process. Cincinatti, 1990, p. 257-302.
[29] Əliyev Ş.İ. İnsan hüquqları. Bakı, Şirvannəşr, 2005, s. 530.
[30] Yamake H. Asia and human rights. The international dimensions of human rights. Vol. 2. 1982, p. 651-670.
[31] Wolfgang Graf Vitzthum u.a. Völkerrecht. Herausgegeben von. 4., neu bearbeitete Auflage. WdeGRECHT. De Gruyter Recht. Berlin. 2011, p. 314.

ilk növbədə, dövlətlərin onların yurisdiksiyası sferasında olan bütün şəxslərə münasibətdə hər hansı ayrı-seçkilik olmadan bu hüquqlara hörmət və əməl etmək öhdəliyi təşkil edir. Bununla da, insan hüquqları sahəsində dövlətlərin üzərinə mühüm öhdəliklər qoyulur və bu öhdəliklərin yerinə yetirilməsinə nəzarət edilir. Bundan başqa, müasir beynəlxalq hüququn inkişafı həmin normaların dövlətdaxili münasibətlər sferasında təsbit edilməsi ilə xarakterizə olunur ki, bu da beynəlxalq hüquq normalarına hörmət prinsipi əsasında həyata keçirilməlidir[32].

2000-ci ildə qəbul edilmiş BMT Minilliyin Bəyannaməsində beynəlxalq məsələlərdə olduğu kimi, milli işlərdə də insan hüquqlarına hörmət edilməsi prinsipinin möhkəmlənməsi barədə dövlətlərin razılığı ifadə olunmuşdur[33]. BMT Nizamnaməsinin 1-ci maddəsində Təşkilatın məqsədlərindən biri kimi heç bir fərq qoyulmadan insan hüquq və əsas azadlıqlarına hörmətin inkişafı və onların təşviqi məqsədilə əməkdaşlığın həyata keçirilməsi göstərilmişdir. Nizamnamənin 55-ci maddəsi də insan hüquqlarına hörmət prinsipinin digər aspektlərini müəyyən edir.

Azad sahibkarlıq hüququnun insan hüquqları aspektindən beynəlxalq-hüquqi tənzimlənməsi sferasında əsas prinsiplər ümumi şəkildə üç qrupa bölünür: insan hüquqlarının müdafiəsi üzrə dövlətlərin öhdəliyi; insan hüquqlarına riayət edilməsi üzrə müəssisələrin məsuliyyəti; hüquqi müdafiə vasitələrinə çıxış. Bu prinsiplərin də hər biri ayrı-ayrılıqda sahəvi prinsipləri özündə cəmləşdirir. Bu prinsiplərin normativ əsasını BMT İnsan Hüquqları Komitəsinin 16 iyun 2011-ci il tarixli Qətnaməsi təşkil edir. Qeyd edilən prinsiplər bütün dövlətlərə, fəaliyyət sferasından, struktur, mülkiyyət formasından və yerləşdiyi yerdən asılı olmayaraq, bütün transmilli və digər müəssisələrə tətbiq edilir. Rəhbər prinsiplərə vahid bütöv kimi baxılmalı, fərdi və kollektiv qaydada şərh edilməlidir. Prinsiplərin məqsədi insan hüquqları aspektindən azad sahibkarlıq fəaliyyətinə dair norma və praktikanın inkişaf etdirilməsidir.

İnsan hüquqlarının müdafiəsi üzrə dövlətlərin öhdəliyi prinsipinin strukturunda baza və fəaliyyət prinsipləri fərqləndirilir. Ümumiyyətlə bu bölgü digər prinsiplərə də tətbiq edilir. Baza prinsipləri aşağıdakı müddəaları özündə cəmləşdirir və sistemli şəkildə mövcud olur.

İnsan hüquqlarına riayət edilməsi üzrə müəssisələrin məsuliyyəti prinsipində əsas diqqət insan hüquqlarına riayət və müdafiə üzrə müəssisələrin məsuliyyətinə yönəlmişdir. Bu prinsip baza və fəaliyyət prinsipləri olmaqla iki qrupa ayrılır. İlk növbədə baza prinsiplərindən başlayaq.

Müəssisələr insan hüquqlarına riayət etməlidir, bu o deməkdir ki, müəssisələr insan hüquqlarının pozulmasına yol verməməli və köməklik göstərdikləri sferada arzuolunmaz nəticələrin aradan qaldırılmasına çalışmalıdırlar. Harada fəaliyyət göstərməyindən asılı olmayaraq, istənilən növ müəssisə öz fəaliyyətində insan hüquqlarının pozulması hallarına yol verməməlidir.

Hüquqi müdafiə vasitələrinə çıxış prinsipi də özündə baza və fəaliyyət prinsiplərini cəmləşdirir. Baza prinsip ondan ibarətdir ki, sahibkarlıq fəaliyyəti üzrə

[32] Черниченко С.В. Теория международного права. В 2-х томах. Том 2: Старые и новые теоретические проблемы. М., НИМП, 1999, с. 383.
[33] Лукашук И.И. Международное право. Общая часть. М., Волтерс Клувер, 2005, с. 255.



insan hüquqlarının müdafiəsi ilə bağlı öhdəlikləri çərçivəsində dövlətlər, məhkəmə, inzibati, qanunvericilik və digər mexanizmlərin köməyilə öz ərazisində və ya yurisdiksiyası hüdudlarında baş verən insan hüquqları pozuntusu hallarında maraqlı tərəflərin effektiv hüquqi müdafiə vasitələrinə çıxışının təmin olunması ilə bağlı müvafiq qərarlar qəbul etsin. Əgər dövlətlər insan hüquqlarının pozulması zamanı həmin pozuntunun araşdırılması, günahkarın cəzalandırılması və zərərin ödənilməsi ilə bağlı real addımlar atmırsa, onda həmin dövlət insan hüquqlarının müdafiəsi ilə bağlı öz öhdəliyini həyata keçirmir. Hüquqları pozulmuş şəxsin hüquqi müdafiə vasitələrinə çıxışı təmin olunmursa və ya belə çıxış kifayət qədər mürəkkəbdirsə, qeyri-effektivdirsə və nəticəsiz qalırsa, bu hallar da dövlətlərin beynəlxalq-hüquqi öhdəliyini icra etməməsi hallarıdır. Dövlətlər öz ərazisində və yurisdiksiyası altında olan şəxslərə pozulmuş hüquqlarının bərpası üçün imkan yaratmalı və bu imkanın əsasında duran hüquqi müdafiə vasitələrinin bilavasitə təminatçısı olmalıdır.

Azad sahibkarlıq fəaliyyətinin beynəlxalq-hüquqi tənzimlənməsi sahəsində beynəlxalq ticarət normaları, xüsusilə də Ümumdünya Ticarət Təşkilatının qayda və prinsipləri mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq ticarət hüququnun prinsipləri Ümumdünya Ticarət Təşkilatının fəaliyyətində əsaslandığı əsas rəhbər başlanğıclardır. Bunlar: ayrı-seçkilik etməmək prinsipi; daha əlverişli rejim prinsipi; milli rejim prinsipi; ticarətin tənzimlənməsində tarif metodlarına üstünlük verilməsi prinsipi; daxili bazarların Ümumdünya Ticarət Təşkilatının qaydaları əsasında qorunması prinsipi; ticarətdə kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılması prinsipi; ticarət siyasətinin aydın və şəffaf olması prinsipi; qarşılıqlılıq prinsipi; preferensiallıq prinsipindən ibarətdir. Bu prinsiplər əvvəlcə Tariflət və Ticarət üzrə Baş Sazişin mətninə daxil edilmiş, daha sonra Ümumdünya Ticarət Təşkilatının mühüm sənədlərində inkişaf etdirilmişdir.

**III Fəsil “Azərbaycan Respublikasında azad sahibkarlıq hüququnun inkişafında beynəlxalq hüquq normalarının rolu və qanunvericiliyin təkmilləşdirilməsi problemi” adlanmaqla üç paraqrafı özündə birləşdirir.**

**Birinci paraqrafda** beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarının dövlətdaxili qanunvericiliyə təsiri problemi araşdırılmışdır. Beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları onun əhəmiyyətli elementlərindən biri kimi əksər dövlətlərin hüquq sisteminə daxil edilir. Belə ki, AFR Konstitusiyasının 25-ci maddəsinə əsasən, beynəlxalq hüququn ümumtanınmış normaları federativ hüququn tərkib hissəsidir. Onlar qanunlar üzərində primatlığa malik olmaqla, Federasiyanın ərazisində yaşayanlar üçün hüquq və vəzifələr doğurur. Avstriya Konstitusiyasının 9.1-ci maddəsində qeyd edilir ki, beynəlxalq hüququn ümumtanınmış normaları federal hüququn tərkib hissəsi kimi çıxış edir. Yunanıstan Konstitusiyasının 28-ci maddəsinə əsasən, beynəlxalq hüququn ümumtanınmış normaları yunan daxili hüququnun ayrılmaz hissəsidir və onlara zidd olan istənilən qanunun müddəaları üzərində prioritetə malikdirlər. İtaliya Konstitusiyasının 10-cu maddəsinə müvafiq olaraq, ölkədə hüquq qaydası beynəlxalq-hüquqi normalarla uyğunlaşdırılmalıdır. İrlandiya Konstitusiyasının 29.3-cü maddəsinə müvafiq olaraq, beynəlxalq hüququn ümumqəbuledilmiş prinsiplərini özünün başqa dövlətlərlə münasibətlərdə davranış normaları kimi tanıyır.

Dövlət beynəlxalq hüquq normalarının tətbiqi üçün məsuliyyət daşıyır. Dövlət öz yurisdiksiyası hüdudlarından beynəlxalq hüquq normalarının tətbiqinə şərait yaratmalıdır. Beynəlxalq hüquq normalarının tətbiqi üzrə dövlət orqanlarının təşkili və fəaliyyəti daxili hüquqla tənzimlənir. AR qanunvericiliyində beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarının primatlığı birbaşa təsbit edilməsə də, AR Konstitusiyasının 10-cu maddəsi beynəlxalq münasibətlərin prinsiplərini müəyyən edir. Belə ki, həmin maddəyə əsasən, AR başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Konstitusiyanın 148-ci maddəsinin 2-ci hissəsinə əsasən, AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr AR qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.

AR Konstitusiyası beynəlxalq hüququn ümumtanınmış normalarının milli hüquq sistemində yerini müəyyən etmir, həmçinin dövlətdaxili hüquqda realizəsi üsullarına da toxunmur. Konstitusiyanın 10-cu maddəsində təsbit edilən müddəa konkret olaraq digər dövlətlərlə münasibətlərin qurulması və inkişafını müəyyən edir. Dövlətdaxili hüquqa münasibətdə isə "tərəfdar çıxdığı beynəlxalq müqavilələr" ifadəsindən istifadə edilir. Bu konsepsiyanın normativ əsasını Konstitusiyanın müxtəlif maddələrində tapmaq olar. Konstitusiyanın 12.2-ci maddəsində qeyd edilir ki, bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Eyni zamanda, 148.2-ci maddəyə əsasən, AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr AR qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.

Hüquq normalarının, eyni zamanda beynəlxalq hüquq normalarının dəyəri və effektivliyi həmin normaların realizəsi prosesində özünü büruzə verir. Həm dövlətdaxili, həm də beynəlxalq hüquq inkişaf tempi və ya normalarının zənginliyi ilə deyil, praktikada realizə imkanları ilə qiymətləndirilir. S.V.Çerniçenkonun sözləri ilə desək, məhz bu hüququn həyatı deməkdir. Beynəlxalq hüquq normalarının əksər hissəsi dövlətdaxili səviyyədə realizə olunur. V.V.Qavrilov qeyd edir ki, müasir şəraitdə dünyanın qlobal problemlərinin həlli beynəlxalq hüququn effektivliyindən asılı olursa, bu halda beynəlxalq hüquqi normaların praktikada realizəsi mühüm əhəmiyyət kəsb edir[34].

Həm beynəlxalq, həm də milli hüquqi normaların həqiqi potensialı onların həyata keçirilməsi zamanı üzə çıxır. Hüquq, realizəsi prosesində onun dinamikasını göstərən normalarla özünü büruzə verir.

AR Konstitusiyası beynəlxalq hüququn primatlığını tanıyaraq, onun milli hüquq sisteminə təsiri imkanlarına şərait yaradır. Bu məsələ digər qanunvericilik aktlarında da öz təsbitini tapmışdır. Məsələn, Ailə Məcəlləsinin 1.1-ci, Mülki Məcəllənin 3-cü, Vergi Məcəlləsinin 2.5-ci, MPM-in 1.5-ci, Məhkəmələr və hakimlər haqqında Qanunun 2-ci, Xüsusi iqtisadi zonalar haqqında Qanunun 3-cü, Xarici investisiyanın qorunması haqqında Qanunun 1-ci maddəsində

[34] Гаврилов В.В. Международный механизм контроля за имплементацией универсальных актов о правах человека // Московский журнал международного права. 1995, N 4, с. 24.



Respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrin dövlətdaxili qanunvericilik üzərində üstünlüyü təsbit olunur. Lakin, AR Konstitusiyasının 151-ci maddəsində qeyd edilən "referendum və konstitusiya" müddəasını yaddan çıxarmaq lazım deyil. Həmin maddədə qeyd edilir ki, AR qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (AR Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) AR-in tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Azad sahibkarlıq hüququnun tənzimlənməsi və daha effektiv şəkildə realizəsi üçün beynəlxalq-hüquqi normaların milli qanunvericiliyə tətbiqi vacib şərtdir. Digər bir məsələ ondan ibarətdir ki, azad sahibkarlıq fəaliyyəti ölkə sərhədlərini aşdıqda bu məsələ daha da qabarıq şəkildə üzə çıxır.

**İkinci paraqrafda** azad sahibkarlıq hüququnun inkişafı sahəsində AR-in beynəlxalq-hüquqi əməkdaşlığı ilə bağlı məsələlər tədqiq edilir. Ölkədə əlverişli biznes mühitinin yaradılması istiqamətində beynəlxalq təcrübənin öyrənilməsi və onun tətbiqi sahəsində beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edilməkdədir.

Dövlətlərin iqtisadi əməkdaşlığının əsasları BMT Nizamnaməsində təsbit edilmişdir. Nizamnamənin 1-ci maddəsinin 3-cü bəndinə müvafiq olaraq, BMT-nin əsas məqsədlərindən biri, beynəlxalq əməkdaşlığın həyata keçirilməsi və iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsidir. Bütövlükdə əməkdaşlıq prinsipi beynəlxalq hüququn bütün digər prinsiplərinin praktiki realizəsi forması kimi 1970-ci il tarixli Beynəlxalq hüququn prinsipləri haqqında Bəyannamədə, 1975-ci il tarixli ATƏM-in Helsinki Yekun Aktında təsbit edilmişdir. Bu sənədlərdə dövlətlərin BMT Nizamnaməsinə müvafiq surətdə bir-biri ilə müxtəlif sferalarda əməkdaşlığı nəzərdə tutulur.

Dövlətlərin iqtisadi sferada əməkdaşlıq öhdəliyi 12 dekabr 1974-cü il tarixli Dövlətlərin iqtisadi hüquq və vəzifələri haqqında Xartiyada da bəyan edilmişdir. Xartiyanın 8-9-cu maddələrinə əsasən, dövlətlərin bu öhdəliyi daha səmərəli və ədalətli beynəlxalq iqtisadi münasibətlərə yardım göstərilməsi və bütün dünya dövlətlərinin iqtisadi və sosial inkişafına nail olması ilə şərtlənir. Hər bir dövlət öz xalqının iqtisadi, sosial və mədəni inkişafında məsuliyyət daşıyır.

Bir tərəfdən, beynəlxalq iqtisadi əməkdaşlıq – dövlətlərin və beynəlxalq təşkilatların beynəlxalq iqtisadi münasibətlərin sabitliyinin möhkəmləndirilməsinə, milli maraqların təmin edilməsinə və qarşılıqlı faydalı hüquqi mexanizmlərin təkmilləşdirilməsinə yönəlmiş razılaşdırılmış fəaliyyət sistemidir. Dövlətlərin, beynəlxalq təşkilatların və beynəlxalq hüququn digər subyektlərinin öz aralarındakı beynəlxalq iqtisadi əməkdaşlığı beynəlxalq iqtisadi hüququn tənzimetmə predmetinə daxildir. Digər tərəfdən, beynəlxalq iqtisadi əməkdaşlıq – müstəqillik, dövlətlərin milli suverenliyi və iştirakçıların qarşılıqlı iqtisadi fayda prinsiplərinə əsaslanmış, dövlətlərin, beynəlxalq təşkilatların, həmçinin ayrıca subyektlərin iştirakı ilə dinamik, dərinləşdirici, siyasi və təsərrüfat əlaqələrinin kompleksidir.

Respublikamız azad sahibkarlıq fəaliyyəti sferasında bir çox dövlətlərlə əməkdaşlıq edir. Belə əməkdaşlığın nəticəsi kimi çoxsaylı ikitərəfli komissiyalar da fəaliyyət göstərir. Respublikamızın azad sahibkarlıq fəaliyyəti sahəsində ikitərəfli

əməkdaşlıq etdiyi ölkələrin çoxluğunu nəzərə alaraq, onlardan bəziləri ilə əməkdaşlığın xüsusiyyətlərinə nəzər yetirilməsini məqsədəmüvafiq hesab edirik.

AR-lə iqtisadi sferada ən çox əməkdaşlıq edən, dövlətlərarası ticarət dövriyyəsinin ən çox olduğu ölkələrdən ABŞ, Almaniya, Rusiya, Türkiyə və italiyanı xüsusilə qeyd etmək lazımdır. AR və ABŞ arasında bir çox sferalarda, o cümlədən azad sahibkarlıq fəaliyyəti sahəsində ikitərəfli əsasda bir çox saziş və sənədlər imzalanmışdır. Respublikamızın azad sahibkarlıq fəaliyyəti sahəsində ən çox əməkdaşlıq etdiyi Qərbi Avropa dövlətlərindən biri də Almaniyadır.

Rusiya Federasiyasında azad sahibkarlıq fəaliyyəti ilə məşğul olan çoxsaylı AR vətəndaşları var. Hər bir fəaliyyət növündə olduğu kimi, azad sahibkarlıq fəaliyyətinin realizəsi zamanı müəyyən problemlərin meydana çıxması labüddür. Burada əsas məsələ meydana çıxan problemin həlli və gələcəkdə bu tip problemlərin yenidən yaranmasının qarşısının alınmasıdır. 22 noyabr 2006-cı il tarixdə Rusiya Federasiyası ərazisində ticarətlə məşğul olan Azərbaycan vətəndaşlarının problemlərinin həlli haqqında AR Prezidenti Sərəncam imzalamışdır. Sərəncamda qeyd edilir ki, Rusiya Federasiyası Hökumətinin 15 noyabr 2006-cı il tarixli 683 №-li Qərarına əsasən, 2007-ci il yanvarın 15-dən ölkə ərazisində miqrantların ticarətlə məşğul olmasına məhdudiyyət qoyulur. Qərar, müvafiq olaraq bu ölkədə ticarətlə məşğul olan çoxsaylı Azərbaycan vətəndaşlarına da şamil olunur. Rusiya Federasiyası ərazisində ticarətlə məşğul olan Azərbaycan vətəndaşlarının rastlaşacağı problemlərin həlli məqsədilə Rusiyada ticarət fəaliyyəti ilə məşğul olan Azərbaycan vətəndaşlarının problemlərinin öyrənilməsi və həlli ilə bağlı dövlət komissiyası təsis edilmişdir.

Respublikamızın dövlətlərarası ticarət dövriyyəsində Türkiyə aparıcı yer tutur. Azərbaycanda fəaliyyət göstərən iş adamlarının əksəriyyətini məhz bu ölkənin nümayəndələri təşkil edir. Respublikamızın ticarət dövriyyəsində ən çox paya malik olduğu dövlətlərdən biri İtaliyadır. AR Hökuməti və İtaliya Respublikası Hökuməti arasında İnvestisiyaların təşviqi və qorunması haqqında 1997-ci il sentyabrın 25-də Roma şəhərində Saziş imzalanmışdır. 2004-cü il iyulun 21-də Bakı şəhərində AR Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında Gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergilərin ödənilməsindən yayınmanın qarşısının alınması haqqında imzalanmış Konvensiya və həmin Konvensiyaya Əlavə Protokol imzalanmısdır.

Bu kimi hallar AR-in digər dövlətlərlə də imzaladığı kifayət qədər müqavilələrdə əks olunmuşdur. Bütövkükdə, Respublikamızın iqtisadi əlaqələri, ticarət münasibətləri inkişaf etdikcə azad sahibkarlıq hüququ da inkişaf edir, təkmilləşir. İqtisadi əlaqələrin genişlənməsi, xüsusilə də ikitərəfli ticarət münasibətlərinin intensivləşməsi inkişaf etmiş dövlətlərin müsbət təcrübəsindən yararlanmağa və yeni tənzimləmə mexanizmlərinin tətbiq edilməsinə şərait yaradır.

**Üçüncü paraqrafda** beynəlxalq-hüquq normalarının milli qanunvericiliyin təkmilləşməsinə təsiri və AR-də azad sahibkarlıq hüququnu tənzimləyən qanunvericilik sisteminin inkişaf tendensiyaları problemi tədqiq edilir. AR-də iqtisadi islahatların həyata keçirilməsində və yeni təsərrüfat sisteminin formalaşdırılmasında azad sahibkarlığın, şəxsi təşəbbüskarlığın inkişaf etdirilməsi



mərkəzi yer tutur. Ölkədə sağlam sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılması dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir.

Sahibkarlığın inkişafı yeni iş yerləri yaradır, istehlak bazarına yeni məhsul növü çıxarır, vergi ödəyicilərinin sayını artırır, iqtisadi islahatların sosial bazası kimi əhalinin orta təbəqəsini formalaşdırır. Digər tərəfdən sahibkarlığın inkişafı xarici investisiya axınını gücləndirir və ölkənin dünya iqtisadiyyatına inteqrasiya olunmasını sürətləndirir. Azərbaycan dövləti sahibkarlığın sürətlə inkişaf etdirilməsini ölkədə iqtisadi və sosial problemlərin həllinin, cəmiyyətdə sabitliyin möhkəmləndirilməsinin mühüm amili hesab edir.

Beynəlxalq praktikadan o da məlumdur ki, səmərəli fəaliyyət göstərən, oturuşmuş və güclü sahibkarlıq institutunun formalaşması və inkişafı uzunmüddətli bir proses olub, xeyli dərəcədə hakimiyyət orqanları tərəfindən müəyyənləşdirilən iqtisadi, hüquqi, siyasi və s. şəraitin əlverişlilik, həm də dövlətin biznesin və cəmiyyətin partnyorluğunun səmərəlilik dərəcəsindən asılıdır.

AR-də həyata keçirilən iqtisadi siyasətdə əlverişli biznes və investisiya mühiti yaratmaqla daxili və xarici investisiyaların cəlb edilməsi və qeyri-neft sektorunun güclü inkişafına nail olunması mühüm aktuallıq kəsb edir. Qeyri-neft sektorunun hərtərəfli, sürətli və səmərəli inkişafının təmin edilməsinin ən zəruri şərtlərindən biri sahibkarlığın inkişaf etdirilməsi, ilk növbədə, kiçik və orta biznesin fəaliyyətinin effektivliyinin artırılmasıdır. AR-də bazar münasibətlərinə əsaslanan təsərrüfatçılıq sisteminə keçidin ilk illərindən başlayaraq sahibkarlığın inkişafı və dəstəklənməsinə dair bir sıra mühüm normativ-hüquqi aktlar qəbul edilmişdir. Onların arasında “Sahibkarlıq fəaliyyəti haqqında”, “Kiçik sahibkarlığa dövlət köməyi haqqında”, “Antiinhisar fəaliyyəti haqqında”, ”Haqsız rəqabət haqqında”, ”İnvestisiya fondları haqqında”, “Xarici investisiyaların qorunması haqqında”, “Xüsusi iqtisadi zonalar haqqında” və s. bu kimi qanunlar, həmçinin dövlətin iqtisadiyyata müdaxiləsini minimuma endirmək məqsədilə “Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında”, “Sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında”, ”Sahibkarlıq sahəsində yoxlamaların nizama salınması və istehlakçıların hüquqlarının təmin edilməsinə dair bəzi tədbirlər haqqında” Prezident fərmanları, eləcə də “Bir pəncərə sisteminə keçid haqqında” Prezident fərmanı da xüsusi yer tutur. Həmin normativ-hüquqi aktlar Azərbaycanda sahibkarlığın inkişafı və dəstəklənməsinin hüquqi bazasının formalaşmasında mühüm rol oynayır.

AR Prezidentinin “Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında” 28 sentyabr 2002-ci il tarixli Fərmanına əsasən, bir sıra mərkəzi və yerli icra hakimiyyəti orqanlarının nəzarət və yoxlama funksiyalarını yerinə yetirən müxtəlif qurumları ləğv edilmiş və hüquq-mühafizə orqanlarının sahibkarlıq subyektlərinə müdaxiləsi qadağan edilmişdir.

Respublikamızda azad sahibkarlıq sferasının təkmilləşməsində regional inkişaf xüsusi əhəmiyyət kəsb edən məsələlərdəndir. Prezident İlham Əliyev 2004-cü il fevralın 11-də “AR regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi barədə Fərman imzaladı və beləliklə,

Azərbaycan bölgələrinin həyatında yeni səhifə açıldı. Bu sənəd regionların sosial-iqtisadi inkişafına yol açmaqla yanaşı, ümumilikdə Respublikanın iqtisadi inkişafına təkan verərək makroiqtisadi bazanın möhkəmləndirilməsinə baza yaratmış oldu. Prezidentin müvafiq fərmanı ilə yanaşı, Quba-Xaçmaz, Şəki-Zaqatala, Dağlıq Şirvan, Lənkəran, Aran, Gəncə-Qazax və Yuxarı Qarabağ iqtisadi rayonlarına daxil olan şəhər və rayonların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə olaraq 20-dən çox sərəncam imzalanmışdır.

Azad sahibkarlığın həyata keçirilməsi sahəsində mövcud çatışmazlıqların aradan qaldırılması məqsədilə Prezident İlham Əliyev tərəfindən Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında 2007-ci il 30 aprel tarixdə Fərman imzalanmışdır. Bu Fərmanın icrası ilə əlaqədar hökumətdə vahid kodlaşdırmanın tətbiqi ilə sahibkarlıq subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipinə uyğun təşkilinə dair geniş təhlillər və müzakirələr aparılmış, müvafiq təkliflər hazırlanmışdır. "Bir pəncərə" prinsipinin tətbiqi ilə bağlı qanunvericilik bazasının yaradılması ilə yanaşı, vergi orqanlarında müvafiq strukturlar və bu strukturlarda sahibkarlıq fəaliyyəti həyata keçirmək istəyən şəxslərə xidmət göstərilməsi üçün hər cür şərait yaradılmış, qısa müddətdə kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı sahəsində bir sıra mütərəqqi yeniliklər tətbiq edilmiş və qeydiyyat prosedurları sadələşdirilmiş, müddət isə dəfələrlə azaldılmışdır. 2007-ci il dekabrın 29-da Prezident İlham Əliyev sahibkarlıq subyektlərinin "bir pəncərə" prinsipi ilə dövlət qeydiyyatına başlanılması mərasimində iştirak etmiş, öz tapşırıq və tövsiyələrini vermişdir. Sahibkarlıq subyektlərinin "bir pəncərə" prinsipi ilə qeydiyyatı sistemi Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən müəssisələrin qeydiyyatı sahəsində ən uğurlu islahat hesab edilmiş və "Doing Business" hesabatının "Biznesə başlama" reytinqində Respublikamız 64-cü yerdən 13-cü yerə yüksəlmişdir.

"Sahibkarlığın inkişafına mane olan müdaxilələrin aradan qaldırılması haqqında" Fərmanla məhkəmələrə iqtisadi və sahibkarlıq fəaliyyətinə dair mübahisələrin həlli ilə bağlı qərarların qəbulunda qanunun aliliyinin təmin edilməsi, mübahisələrin baxılmasında süründürməçilik hallarına yol verilməməsi tövsiyə olunmuş, "AR-də sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" Fərmana əsasən sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" (vahid qeydiyyat orqanı) prinsipinə uyğun təşkilinə dair təkliflərin hazırlanması aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarına, o cümlədən AR Vergilər Nazirliyinə, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar torpaq sahələrinin ayrılması və tikinti işləri üzrə bir sıra prosedurların sadələşdirilməsi və müddətinin azaldılması ilə bağlı təkliflərin hazırlanması müvafiq icra hakimiyyəti orqanlarına tapşırılmışdır.

Azad sahibkarlıq qanunvericiliyinin və regionların inkişafı istiqamətində növbəti addım "AR regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında" AR Prezidentinin 19 aprel 2009-cu il tarixli Fərmanı oldu**.** "AR regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır.



**Dissertasiya işinin nəticə hissəsində** tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmiş, o cümlədən beynəlxalq və dövlətdaxili normativ hüquqi sistem üçün onların nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap olunmuşdur:**


1. Sahibkarlıq fəaliyyətinin beynəlxalq-hüquqi tənzimlənməsinin prinsipləri. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2011, №4 (28), s. 99-105.
2. Sahibkarlıq fəaliyyəti sahəsində mübahislərin həlli üzrə alternativ mexanizmlər. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2012, №1 (29), s. 51-56.
3. Azad sahibkarlıq hüququnun konstitusion-hüquqi realizəsi probemi: müqayisəli təhlil. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2012, №3 (31), s. 22-28.
4. Azərbaycan Respublikasında azad sahibkarlıq hüququnu tənzimləyən qanunvericilik sisteminin inkişaf tendensiyası. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2012, №4 (32), s. 21-26.
5. Azad sahibkarlıq hüququnun inkişafı sahəsində Azərbaycan Respublikasının ikitərəfli əməkdaşlığı. . «Dirçəliş – XXI əsr», 2013, 176/177, s. 245-261.
6. İnsan hüquqları sistemində azad sahibkarlıq hüququnun yeri. Nəqliyyat hüququ, 2013, №4, s. 55-61 (Ə.İ.Əliyevlə birlikdə).
7. Основные принципы международно-правового регулирования в сфере права на свободное предпринимательство в аспекте прав человека. Law and Politology (Право и политология), Кишинев (Молдова), 2013, №24, с. 12-20 (Я.И.Ялийевля бирликдя).
8. Тенденции развития системы законодательства, регулирующего право на свободное предпринимательство в Азербайджанской Республике. Право і суспільство, Киев (Украина), 2013, №4, с. 206-212.
9. Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti sferasında mübahislərin nizama salınmasının məhkəmədənkənar mexanizmləri. 10 dekabr Beynəlxalq insan hüquqları gününə həsr edilmiş Beynəlxalq-elmi praktik konfransın (13-14 dekabr 2012-ci il) materialları. II cild. Bakı, Bakı Universiteti nəşriyyatı, 2013, s. 714-717.

## РЕЗЮМЕ

Диссертационная работа на тему «Право на свободу предпринимательства: нормы международного права и законодательство Азербайджанской Республики», представленная Гулиевым Фаридом Эльдар оглу на соискание ученой степени доктора философии по праву по специальности 5603.01 – «Международное право; права человека» и по специальности 5608.01 - «Гражданское право; предпринимательское право; семейное право; международное частное право» является самостоятельной, творческой и завершенной научно-исследовательской работой, отражающей совершенно новые научные положения и имеющей очень важное значение с точки зрения изучения международных и национальных правовых основ права на свободу предпринимательства как одного из основных прав человека, а также для широкого анализа актуальных вопросов взаимосвязи между предпринимательским правом и правами человека в целом. Диссертационная работа сформирована на основе сравнительного анализа международной договорной практики, законодательств различных государств, включая законодательство Азербайджанской Республики, а также существующего в юридической литературе разнообразия мнений.

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы исследования, указывается степень разработанности, научная новизна темы исследования, приводятся новые положения, выносимые на защиту, цели и задачи, теоретическое и практическое значение исследования.

Первая глава диссертационного исследования называется «Формирование и развитие право на свободу предпринимательства в контексте защиты прав человека». В этой главе анализируются понятие, сущность и специфические особенности права на свободу предпринимательства, на основе сравнительного анализа законодательства зарубежных стран и Азербайджанской Республики рассматриваются проблемы места права на свободное предпринимательство в системе прав человека, нормативно-правовые основы реализации и защиты права на свободное предпринимательство.

Вторая глава диссертационного исследования называется «Международно-правовые основы регулирования права на свободу предпринимательства». В этой главе анализируются такие важные вопросы, как особенности регулирования права на свободу предпринимательства в универсальных международных договорах, регулирование права на свободу предпринимательства в региональных правовых актах, основные принципы международно-правового регулирования права на свободу предпринимательства в системе прав человека.

Третья глава диссертационного исследования называется «Роль норм международного права в развитии права на свободу предпринимательства в Азербайджанской Республике и проблема совершенствования законодательства». В этой главе подробно анализируется вопросы влияния общепризнанных принципов и норм международного права на внутригосударственное законодательство, международно-правовое сотрудничество Азербайджанской Республики в сфере развития права на свободу предпринимательства, влияния норм международного права на совершенствования национального законодательства и тенденции развития системы законодательства, регулирующей право на свободу предпринимательства в Азербайджанской Республике.

В заключительной части диссертационного исследования приведены важнейшие предложения и выводы автора, полученные в результате проведенного исследования, отмечена их теоретическая и практическая значимость с точки зрения системы международного и национального (внутригосударственного) нормативного права.





## SUMMARY

Farid Eldar oglu Guliyev`s dissertation work “Right to free entrepreneurship: norms of international law and legislation of the Republic of Azerbaijan” for attaining the degree of Doctor of Philosophy in Law in the specialisation 5603.01 –“International law; human rights” and 5608.01- “Civil law; business law; family law; private international law” is independent, creative and completed work. Containing brand new provisions, the dissertation work is of paramount importance for analysis of both international and domestic legal grounds of free entrepreneurship and further it analyses interconnection of right to free entrepreneurship with human rights and other topical issues. The dissertation work is formed on the basis of comparative analysis of diverse points of views existing in legal literature, on legislation of different countries, and on international treaties` experience.

Dissertation work contains introduction, three chapters, conclusion and bibliography.

Topicality is substantiated in the introduction, the theoretical and practical importance of research, aims and goals, development rate, new approaches to the topic and novelty of the research work have been considered in the introduction.

The first chapter is called “The formation and development of right to free entrepreneurship in the context of protection of human rights”. The following issues have been analysed in the first chapter: concept and spesific characteristics of right to free entrepreneurship, its essence and elements, problem of correlation of international and domestic law, and mutual influence of right to free entrepreneurship and human rights law, problem of implementation and protection of right to free entrepreneurship.

The second chapter is titled “International legal grounds for regulation of right to free entrepreneurship”. Universal international legal acts dealing with regulation of free entrepreneurship and regional treaties identifying common principles and norms containing regulation of free entrepreneurship and its correlation with human rights law, its main principles and other important issues have been analysed in this chapter.

The third chapter called “Problem of enhancing of legislation and role of international legal norms in development of right to free entrepreneurship in the Republic of Azerbaijan” is dedicated to the following issues: impact of prominent norms of international law on domestic legislation, cooperation of the Republic of Azerbaijan in the sphere of international law dealing with development of right to free entrepreneurship, impact of norms of international law on enhancing of domestic legal norms, and development tendencies of domestic legal acts within the Republic of Azerbaijan in the domain of right to free entrepreneurship.

The conclusion part of the dissertation work is comprised of suggestions that are made and results that are achieved in the end of the dissertation work and especially dissertation work plays an important theoretical and practical role for the domestic and international legislative system.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи**

**ФАРИД ЭЛЬДАР оглы ГУЛИЕВ**

# ПРАВО НА СВОБОДУ ПРЕДПРИНИМАТЕЛЬСТВА: НОРМЫ МЕЖДУНАРОДНОГО ПРАВА И ЗАКОНОДАТЕЛЬСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальность: 5603.01 – «Международное право; права человека»;**
**5608.01 - «Гражданское право; предпринимательское право; семейное право; международное частное право»**

**А В Т О Р Е Ф Е Р А Т**
**диссертации на соискание ученой степени**
**доктора философии по праву**

**БАКУ – 2014**